**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# 1941-1946-cı İLLƏR CƏNUBİ AZƏRBAYCAN MİLLİ HƏRƏKATININ BƏDİİ ƏDƏBİYYATDA İNİKASI

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: filologiya

İddiaçı: **Sakibə İsmayıl qızı Ələsgərova**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ədəbiyyat kafedrasında yerinə yetirilmişdir.

Rəsmi oponentlər:

AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Teymur Həşim oğlu Kərimli**

Filologiya elmləri doktoru, professor
**Nizami Tağı oğlu Məmmədov**

Filologiya elmləri doktoru, professor
**Gülşən Teymur qızı Əliyeva**

Filologiya elmləri doktoru, dosent
**Əlizadə Bayram oğlu Əsgərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitututnun nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ______________ Filologiya elmləri doktoru, professor
**Seyfəddin Gülverdi oğlu Rzayev**

Dissertasiya şurasının elmi katibi: ______________ Filologiya üzrə fəlsəfə doktoru
**Nizami Şamil oğlu Adışirinov**

Elmi seminarın sədri: ______________ Filologiya elmləri doktoru, dosent
**Leyla Kamran qızı Məmmədova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Cənubi Azərbaycan ədəbiyyatının dinamik fakturasının möhtəşəmliyində mühüm bir hissəni milli hərəkatın 1941-1946-cı il mərhələsinin funksional mahiyyətinin geniş kontekstdə proyeksiyalaşdırıl masının üsul və yollarının elmi-nəzəri aspektdə aydınlaşdırılması təşkil edir. Möhtəşəm yaradıcılıq ənənələrinə bağlanan Cənub mühiti bütün zaman kəsiklərində fundamental yaradıcılıq axtarışları, zəngin mətn fakturası, orijinal düşüncə tiplərinin görünüşü ilə səciyyələnir. Arxaik ifadə modellərinin dominantlığı, xalq təfəkküründə qəlibləşmiş düşüncə tipləri, etnokosmosu təqdim üsullarının mif, epos səviyyəsində aparıcılığa çıxması təbii özünütəşkil prinsipi olaraq məfkurə səviyyəsinə qalxır. Ədəbiyyat isə bütünlükdə bunları bir məram olaraq ifadəyə köklənməklə, nitq etiketləri, janr paradiqması ilə panoramik mənzərəni canlandırmağı məqsədə çevirir.

Azərbaycanın Şimal və Cənub timsalında fərqli ideoloji sistemlərə yol açmaqla, həm də imperiya məfkurəsində müəyyənləşmiş idarəçilik prinsipi ilə üz-üzə qaldı. Vətənin bütövlüyü, etnik kimlik, milli özgürlüyün qorunuşu bütün kontekstlərdə əsas olaraq götürülməklə sonrakı fəaliyyət planının proqramlaşdırılmasını zərurətə çevirdi. XIX əsr boyu davam edən bu mürəkkəb situasiyada bütün ağırlıq və xalqa sahiblik missiyası ədəbi-mədəni mühitin üzərinə düşdü. XVII-XVIII əsrdə itirdiklərini milli intibah səviyyəsində “Koroğlu”, “Tahir və Zöhrə”, “Abbas və Gülgəz”, “Qurbani”, “Qərib və Şahsənəm”, “Aşıq və Yaxşı” və s. kimi şedevrlərlə doldurmaq yolunu tutdu. “Qaçaq Nəbi”, “Qandal Nağı”, “Qara Tanrıverdi”, “Qaçaq Kərəm”, “Molla Nur”, “Qaçaq Süleyman”, “Mehralı bəy” **[17; 18]** və başqa sənət abidələri XIX əsrdə xalq

təfəkkürünün məhsulu olaraq milli özgürlüyün nümunəsi kimi meydana çıxdı. Tarixi prosesin mürəkkəb diaxroniyası bütün parametrlərdə etnik-mənəvi yaddaş timsalında iyirminci əsrə daxil olmaqla milli oyanışları şərtləndirdi.

XIX əsr boyu özünü göstərən çoxsahəli oyanış milli dövlət məfkurəsinin işlənməsini bir zərurət olaraq ideoloji düşüncə müstəvisinə çıxardı. A.Bakıxanov, M.F.Axundov, H.Zərdabi, İ.Qaspıralı, Ə.Hüseynzadə, Ə.Ağayev, Y.Akçuar, M.M.Rəsulzadə və başqaları səviyyəsində prosesin siyasi qanadı Şimalda Azərbaycan Xalq Cümhuriyyətini reallaşdırdı. Cənubda isə bu proses Səttarxan hərəkatı ilə etnokulturoloji təfəkkürdəki cahanşümul dövlət ideyasının reallaşmasına kökləndi. Hər iki xətdə uğursuzluq (məğlubiyyət) sonrakı proseslər üçün daxildən özünütəşkilə üstünlük verməklə Şeyx Məhəmməd Xiyabani hərəkatı ilə yeni sferaya daxil oldu. Azərbaycançılıq və dövlətçilik məfkurəsi artıq bir konsepsiya səviyyəsində bazis məsələsi olaraq işlənməklə Azərbaycan milli hərəkat dönəminə gedən yolun konseptini müəyyənləşdirdi. Ədəbiyyat Cənub mühitində bütün postulatları ilə etnik düşüncənin təfəkkür intelleksiyasından çıxış etməklə funksional rolu öz üzərinə götürdü.

Cənubi Azərbaycanda milli azadlıq hərəkatının 1941-1946-cı il dövrü özündən əvvəlki proseslərin davamı olaraq paradiqmatik mənzərəsi ilə etnosun özünüdərk və özünütəşkil səviyyəsində mükəmməl fəaliyyət proqramı ilə diqqət önünə gəlir. Siyasi ideologiyanın müəyyənləşdirdiyi idarəçilik konsepsiyası, etnik dəyərlərin sıxışdırılması, milli münasibətlər zəminində düşünülmüş problemlərin yaradılması, sosial zəmində sıxıntılar, təqiblər, hüquqların pozulması bütün parametrlərdə dalğalanmaları, narazılıq və etirazların çoxalan müstəviyə çıxmasını qaçılmaz edirdi. Milli-ictimai intellektual təfəkkürün müəyyənlik konsentrasiyası azərbaycançılıq məfkurəsini təbii bir proses olaraq reallıqlardan çıxış etməklə Cənubda (eləcə də

Şimalda) platforma səviyyəsində cəmiyyətə təqdim edərək, həm də onun hərəkat planını hazırladı. Milli hökumətin yaranması və az bir müddətdə (təxminən bir illik fəaliyyəti düvründə) formalaşdırdığı təsəvvür arxaik dövlət modelinin bərpası və təzahürü olaraq dünyagörüş tipi səviyyəsində cəmiyyətə aşılandı.

Milli hökumətin müəyyənləşdirdiyi normativlər özündən əvvəlki dönəmlərin diaxroniyasına bağlanmaqla xronotop səviyyəsində sonrakı proseslərin gedişi üçün örnəyə çevrilir. Ədəbiyyatın funksional rolu stixial məzmunu ilə toplumun təşkilinə və invariantdan gələn müəyyənlik formullarının mahiyyət məsələsi olaraq aparıcılığına bağlanır. Epos təhkiyəsində özünü göstərən modellər, nitq etiketlərinin yeni şəraitdə işləklik mənzərəsi, sakral yaddaşda oturuşmuş təsəvvür tipləri, folklor normativlərinin aparıcılığı, leksik-semantik paralellərin ehtiva elədiyi müəyyənlik bütünlükdə vətənqurma məfkurəsinin qoruyuculuğuna və aparıcı xarakterinin təlqininə köklənir, həm də bütünlükdə bunların mahiyyət məsələsi olaraq üfiqi və şaquli istiqamətdə təhlilini aktuallaşdırır. Poeziya, nəsr, publisistika mətn//mühit, mətn//subyekt, mətn//mətn müstəvisində fundamental məzmunu ilə ayrı-ayrı fərdlər və ümumi ədəbi proses axarında etnik müəyyənliyin aparıcılığını faktlaşdırır. Cənubi Azərbaycan milli hərəkatının bədii ədəbiyyatda ümumi mənzərəsi bütün aspektləri ilə sinxron və diaxron yanaşmalarla mahiyyətin aydınlaşmasını zəruri edir.

Ədəbi-nəzəri fikirdə problemin öyrənilməsi başlanğıcını prosesin özündən (və gedişindən) götürməklə sistemli təhlillərə yol açır. Ayrı-ayrı mətbuat səhifələrində nəşr olunmuş məqalələrdən tutmuş monoqrafik araşdırmalara qədər kəmiyyət və keyfiyyət baxımından fundamental bir elmi-nəzəri baza yaradılmışdır. Üfiqi və şaquli yanaşmalarda bütün təhlillər mahiyyəti aydınlaşdırmağa, ifadəlilik baxımından ədəbi-mədəni

mühitdə milli hərəkatın dərk və təqdiminin üsul və yollarını müəyyənləşdirməyə köklənmişdir. Q.Məmmədli, M.İbrahimov, C.Xəndan, H.Məmmədzadə, H.Billuri, Ə.Heydərzadə, İ.Cəfərpur, N.Rizvan, Q.Kəndli-Herikçi, C.Abdullayev, T.Əhmədov, A.Əliqızı, S.Əmirov, N.Cəfərov, K.Ağamalı, E.Quliyev, F.Əliyev, N.Xudiyev, E.Şükürova, V.Əhməd, A.Hüseynov, Ü.Baxşıyeva, F.Əhmədov və başqaları müxtəlif kontekstlərdə problemin açımına yönəlik təhlillərə üstünlük vermişlər. Məsələn, Q.Məmmədlinin "İran Azərbaycanın görkəmli demokratı" ("Azərbaycan" jur., 1945, № 6) məqaləsi prosesin gedişində yazılması və xalq məfkurəsində formalaşmış qəhrəman probleminin spektrlərinin müəyyənləşməsi baxımından diqqətçəkici bir addım idi. Akademik M.İbrahimovun ədəbi-nəzəri araşdırmalarının mühüm bir hissəsi Cənubda gedən proseslərlə, eləcə də ədəbiyyatın bu prosesdə funksional rolunun aydınlaşması ilə bağlı olmuşdur. Ədibin "Cənubda Azərbaycan milli azadlıq hərəkatı" ("İnqilab və mədəniyyət", 1958, № 6) məqaləsində bu prosesə elmi-nəzəri aspektdən yanaşması ilə mühüm önəm kəsb edir. "XIX əsr Cənubi Azərbaycan ədəbiyyatı haqqında" məqaləsi ("Cənubi Azərbaycan ədəbiyyatı antologiyası". Dörd clddə, I c., Bakı: Elm, 1981), "Dur vəqti-səhərdir" ("Cənubi Azərbaycan ədəbiyyatı antologiyası". Dörd clddə, II c., Bakı: Elm, 1983), "Milli-azadlıq mübarizəsi və demokratik hərəkatın qızıl səhifələri" ("Cənubi Azərbaycan ədəbiyyatı antologiyası". Dörd clddə, III c., Bakı: Elm, 1988) və s. təhlil-araşdırmaları prosesin ədəbi-mədəni mühitdə axarını və vətən bütövlüyünü aydınlaşdırma mexanizmləri ilə fundamental təsəvvür formalaşdırır. H.Məmmədzadə S.C.Pişəvərinin həyat və yaradıcılığını geniş kontekstdə araşdırmış və milli hərəkat dönəminin ümumi axarını fəlsəfə doktoru dissertasiyası səviyyəsində ("İnqilabçı, jurnalist və yazıçı Pişəvəri", ADU, Bakı, 1955) təhlil etmişdir. Araşdırmaların mühüm bir hissəsi ayrı-ayrı

şəxsiyyətlərin yaradıcılığından çıxış etməklə demokratik prosesi təhlilə yönlənmişdir. Məsələn, Ə.Heydərzadə “Balaş Azəroğlunun yaradıclığı” (1967), N.Rizvan “Şəhriyar yaradıcılığında vətənpərvərlik” (1985), Vüqar Əhməd. “M.C. Pişəvəri: həyatı, mühiti və yaradıcılığı”. Bakı, (1998), Vüqar Əhməd. “Şeyx Məhəmməd Xiyavbani”. Bakı, (2010), E. Quliyev Seyid Məhəmmədhüseyn Şəhriyar. Bakı, (1999) , Quliyev E. Şəhriyar poeziyası və milli təkamül. Bakı, (2004), Rəhimli. Ə. “S.C. Pişəvəri. mübarizə burulğanında keçən ömür”. Bakı, (2009), Əliyev.R. Cənubi Azərbaycanda Milli Hərəkat. Bakı, (2013), E.Şükürova “Şəhriyar poeziyasında xalq həyatı” (1998), Ü.Baxşıyeva “Mirzə İbrahimov və Azərbaycan ədəbiyyatı məsələləri” (2017), F.Əhmədov “Bulud Qaraçurlu Səhəndin həyatı və yaradıcılığı” (2022) və s. monoqrafik müstəvidə araşdırmaların probleminə çevrilmişdir.

Cənubi Azərbaycanda demokratik ədəbiyyatın problemlər baxımından təhlili sinxron və diaxron səviyyədə funksional məzmun daşıyır. Məsələn, H.Bülluri “İran Azərbaycan realist demokratik poeziyasının inkişafı (1945-1960-cı illər” (1966), K.Ağamalı “Cənubi Azərbaycan demokratik ədəbiyyatında poema janrı (1945-1960)” (1967), Q.Kəndli-Herisçi “1941-1946-cı illərdə Cənubi Azərbaycan demokratik ədəbiyyatının inkişafı” (1995), A.Əliqızı “Cənubi Azərbaycan ədəbiyyatının inkişaf mərhələləri (1946-1990-cı illər)” (1993), S.Əmirov “Cənubi Azərbaycan milli-demokratik ədəbiyyatı” (2001) və s. təhlil araşdırmalar özünün problematikası, nəzəri-konseptual mənzərəsi ilə sonrakı tədqiqatlar üçün əsaslı mənbə kimi önəm daşıyır.

Ümumiyyətlə, Cənub mövzusu, ədəbi-mədəni prosesin stixial məzmunu, mühiti dərk və təqdim üsullarının spesifiklik formulası baxımından bütünlükdə onilliklər boyu müxtəlif aspektləri ilə geniş təhlillərə əsas olmuşdur.

Akademik N.Cəfərovun "Cənubi Azərbaycanda ədəbi dil, normalar, üslublar" (1990) tədqiqatı elmi-nəzəri məzmunu, mahiyyəti, bütün spektrləri əks etdirmə məramı ilə konseptual səciyyə daşıyır. CMücirinin "İkinci Dünya müharibəsi" və milli azadlıq hərəkatı dövründə ədəbiyyat", X.Quliyevanın "Diktaturanın devrilməsi və inqilabdan sonrakı illərdə ədəbiyyat (1978-1984)" və s. təhlillər ("XX əsr Cənubi Azərbaycan ədəbiyyatında demokratik ideyalar" adlı məqalələr toplusu. Bakı, Elm, 1990) problemə marağın artan istiqamətə getməsini faktlaşdırır. Cənubi Azərbaycan milli hərəkatının (1941-1946-cı illər) bədii ədəbiyyatda sosial-siyasi, ədəbi-mədəni, fəlsəfi-estetik səviyyədə təqdim və dərkinin bütün aspektləri ilə aşkarlanması mövzu-mündəricəsi baxımından xüsusi aktusllıq kəsb edir.

**Tədqiqatın obyekti və predmeti**. Dissertasiyanın obyektini Cənubi Azərbaycan milli hərəkatının (1941-1946) ədəbiyyatda əksi məsələsi təşkil edir. Araşdırmanın predmetini 1941-1946-cı illər Milli hərəkatının bədii ədəbiyyatda poeziya, nəsr, publisistika, dramaturgiya müstəvisində dərki və təqdim üsullarının spesifiklik mənzərəsinin aydınlaşması müəyyənləşdirir. Son dərəcə möhtəşəm faktura ilə səciyyələnən bu problem bütün xronotopları ilə arxaik yaddaşdan gələnləri əhatələməklə mövcud mərhələdə paradiqmatik səviyyənin mətn informasiyasında olanları diqqət önünə gətirir, mətn//mətn, mətn//mühit, mətn//subyekt baxımından mükəmməl bir müəyyənliyi əhatələyir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiyanın qarşısında duran əsas məqsəd Cənubi Azərbaycanda milli hərəkatın (1941-1946) bədii ədəbiyyatda əksinin ümumi mənzərəsini problem səviyyəsində aydınlaşdırmaqdır. Bu məqsədin həyata keçirilməsi üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

-milli hərəkatın ədəbiyyatda paradiqmatik (gerçəkliyin ifadə mənzərəsi, model mənzərəsinin spesifikasını müəyyənləşdirmək;

-milli-mənəvi yaddaşın arxaik modellərinin bədii sferaya gətirilməsinin məqsəd və məramını aşkarlamaq;

-vətən qurma mücadiləsinin Cənub səviyyəsində tipik formulunun bədii sferada dərki və təqdim üsulları;

-parçalanmış, bölünmüş məmləkət təsəvvürünün ictimai-siyasi şüurda formalaşdırdığı düşüncənin diaxronik mənzərəsi;

-epos təhkiyəsində oturuşmuş invariantların yeni şəraitdə işləklik səviyyəsinin açılması;

-cahanşümul dövlət modelinin işlənməsinin və bərpasının nəzəri konseptinin ictimai-siyasi sferaya aşılanması;

-imperiya məfkurəsinin Cənub səviyyəsində görünüşünün geniş ictimaiyyətə təqdimi;

-azərbaycançılıq məfkurəsinin bütünlükdə toplum olaraq konsorsium səviyyəsində işlənməsi;

-vətənin bütövlüyü konsepsiyasının ədəbiyyat müstəvisində təqdiminin görünüş sxeminin açıqlanması;

-etnik müəyyənliyin qorunuşunun bir prinsip olaraq əsas götürülməsənin fövqəlzamanlıq mənzərəsi;

-imperiya məfkurəsinin azərbaycançılığa qarşı yeritdiyi strateji proqrama ədəbiyyatın yanaşma mexanizmi və milli mücadilə konsepsiyasının işlənməsi;

-poeziyada, nəsrdə, publisistikada (eləcə də dramaturgiyanın) mövcud reallığı əks etdirmənin üsul və yolları;

-folklor modellərinin mühiti ifadədə funksional rolu və s.

**Tədqiqatın metodları**. Araşdırmada tarixi-müqayisəli və nəzəri-tipoloji metodlarından istifadə olunmuşdur. Təhlillərdə yeri gəldikcə struktural metodun ümumi prinsiplərindən də bəhrələnilmişdir. Dissertasiya

çağdaş ədəbi-nəzəri fikrin əldə etdiyi mükəmməl nailiyyətlərə və konseptual sənət meyarlarına istinad əsasında işlənmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Dissertasiyada müdafiəyə aşağıdakı müddəalar çıxarılır:

-Cənubi Azərbaycan milli hərəkat dönəminin (1941-1946) bədii ədəbiyyatda inikası etnik tarixi yaddaşın özünüdərk və özünütəşkili timsalında fundamental mənzərə ilə səciyyələnir;

-milli oyanışın və milli dövlət məfkurəsinin toplum səviyyəsində aşılanmasının funksional rolu ilə yeni bir mərhələnin başlanması təsəvvürünü formalaşdırır;

-ictimai-siyasi, sosial-mədəni sferada şüuraltı hadisə olaraq etnik müəyyənliyin paradiqmatik mənzərəsinin milli mücadilə formulasının müəyyənləşməsində bədii düşüncənin aparıcı missiyası;

-ikiyə bölünmüş vətənin bütövlük modelinin bədii sferada dərki və təqdimi;

-cahanşümul dövlət ideyasının arxaik formulunun pozulmuş nizam timsalında bərpasının bir etnik məram olaraq aşılanması;

-etnik-əxlaqi, milli-mənəvi dəyərlərin və məfkurənin zədələnməsinə qarşı toplumun dayana bilmək potensiyasının bədii düşüncədə bir amal olaraq təlqini;

-dövlət səviyyəsində siyasi rejimin azərbaycançılıq ideologiyasına qarşı apardığı dağıdıcı məfkurənin (proqramlaşmış mexanizmin) xalqa çatdırılması;

-kutsal mədəniyyət kodlarının, sakral yaddaşda qəliblənmiş modellərin yeni şəraitdə işlənməsinin stixial xarakteri;

-ədəbiyyatın şifahi və yazılı qolunda milli mücadilə səviyyəsində gedən proseslərin konsentral mənzərəsinin spesifiklik səciyyəsi;

-sintaqmatik səviyyədə və janr səviyyəsində mövcud reallığın çatdırılmasının və işlənməsinin üsul və yolları;

-tarixi-mədəni, ictimai-siyasi diaxroniyanın yeni şəraitdə geneloji sisteminin hazırlanması;

-epos təhkiyəsindən, folklor yaddaşından süzülüb gələn formulların normativ xarakterinin toplum timsalında ədəbiyyatda işləkliyinin aparıcılığı və s.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyanın əldə edilmiş elmi yeniliyini bir neçə istiqamətdə ümumiləşdirmək olar:

-Cənubda milli hərəkat dönəmi bədii ədəbiyyatda ayrıca bir mərhələ olması xarakteri ilə səciyyəvilik qazanır;

-ədəbi-mədəni mühit bütün potensiyası ilə etnik müəyyənliyin qorunuşunu mövcudluq səviyyəsində topluma aşılamaq yolunu tutur;

-poeziya etnokulturoloji sistemin aparıcılığını yüksək təfəkkür intelleksiyası ilə əks etdirməyi və topluma yönləndirməyi bir məqsəd olaraq reallaşdırmaq yolunu tutur;

-nəsrdə milli hərəkatın ifadəsi və təqdim texnologiyaları epos təhkiyəsindən gələnlər timsalında möhtəşəm bir zənginliklə faktlaşır;

-publisistik üslub reallığın dərki və etnosa çatdırılması baxımından fundamental yaradıcı axtarışları və düşüncə tərzləri ilə əlçatmazlıq qazanır;

-parçalanmış, işğal olunmuş vətənin bütövlüyünün bir konsepsiya səviyyəsində ədəbiyyatda işlənməsi modeli;

-yüksək əxlaqi-mənəvi dəyərlərin qorunuşu və təlqini, gələcəyə daşınışı kutsallığının bir özgürlük kodu olaraq əsas götürülməsi;

-arxaik dövlət modelinin bərpası və yenidən işlənməsi konsepsiyasının ədəbi-mədəni mühitdəki mənzərəsi;

-imperiya ideologiyasının xaqa qarşı yönəlik məkrli siyasətinin mahiyyətinin açıqlanması;

-xalqın bədii düşüncəsindəki mövcud işləklik qazanmış ifadəlilik modellərinin funksional rolunun prinsip olaraq əsas götürülməsi;

-folklorda gələn mövcud normativlərin yeni şəraitdə yeni məzmun çalarları ilə görünüşü;

-ədəbiyyatın etnik müəyyənliyin və özünüdərkin topluma aşılanmasında, tarixi dövlət və dövlətçilik məfkurəsinin işlənməsində funksional rolu açıqlanmışdır və s.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. Dissertasiya problemin elmi-nəzəri səviyyədə işlənməsi və onun nəzəri konseptinin hazırlanması baxımından mühüm əhəmiyyət daşıyır. Cənubi Azərbaycan ədəbiyyatının tarixi-xronikal mənzərəsi, bədii-estetik mündəricəsi bütün zaman kəsiklərində yüksək poetexnoloji intelleksiyası ilə nəzər-diqqəti cəlb etmişdir. Milli-mədəni məfkurənin zədələnmiş formulasının bərpasının bir prinsip və dəyər olaraq əsas götürülməsi ədəbi-mədəni mühitin düşüncəsinə intəhasızlıq möhürünü vurmuşdur. Tədqiqat isə bütün bunları etnosun mövcudluq səviyyəsində ədəbiyyatda işlənməsinin nəzəri konsepsiyasını cızmışdır.

İşin praktik əhəmiyyəti ilk növbədə tədris prosesi ilə müəyyənləşir. Ədəbiyyat araşdırıcıları, Cənub mühitini problem olaraq öyrənənlər, eləcə də universitetlərin filologiya fakültələrinin müəllim və tələbələri tədris prosesində bundan bir mənbə olaraq yararlana bilərlər.

**Tədqiqatın aprobasiyası və tətbiqi**. Dissertasiyada əldə olunan nəticələr müəllifin ölkə daxilində və respublikadan kənarda çap olunmuş məqalələrində, cənub mövzusunda yazdığı kitablarında, müxtəlif beynəlxalq konfrans və simpoziumlardakı məruzələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ədəbiyyat" kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın mövzusu Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi Şurasının 28 fevral 2013-cü il (protokol №7) və Respublika

Əlaqələndirmə Şurasının 21 dekabr 2012-ci il (protokol № 16) protokollarının qərarları ilə təsdiq olunmuşdur.

**Struktur bölmələri ayrılıqda qeyd olunmaqla dissertasiyanın ümumi həcmi**.

Dissertasiya mündəricat, giriş 17252 işarə, I Fəsil 114391 işarə; II Fəsil 95874 işarə; III Fəsil 121697 işarə; IV Fəsil 100205 işarə; V Fəsil 82497 işarə, nəticə 16267 işarədən ibarətdir. Ədəbiyyat siyahısı istisna olmaqla, dissertasiyanın ümumi həcmi – 548183 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, tədqiqat işinin aprobasiyası və tətbiqi, dissetasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumu həcmi haqqında məlumat təqdim edilir.

Dissertasiya işinin birinci fəsli "**Ədəbi-mədəni mühitdə Cənubi Azərbaycan milli hərəkatının bədii-estetik dərki**" adlanır. Bu fəsil 3 yarımfəsildən ibarətdir. Brinci yarımfəsildə "**Dövrün ictimai-siyasi mənzərəsi və etnik tarixi yaddaşın bədii düşüncədə təbii özünütəşkil formulu**" problemi qoyularaq Azərbaycan xalqının milli dövlətçilik şüuru, bütövlük idealı etnosun mövcudluğunun və etnik kimliyinin göstəricisi olaraq zamanından, coğrafi məkanından asılı olmayaraq həmişə ana axarı müəyyənləşdirməsi baxımından təhlilə cəlb olunmuşdur.

Şimal və Cənub adı ilə parçalanma sosial-siyasi, ədəbi-mədəni əlaqələrin zəifləməsini siyasi ideolojilərin yerinə yetirdiyi bir məram olaraq qarşıya qoymasına baxmayaraq, xalqın etnik yaddaşı özü ilə birgə mövcud rejimlərə qarşı dayanıqlıq göstərəcək gücün də oyanışı

(hərəkətliliyi) üçün əsas oldu. Etnik tarixin formalaşması və onun ortaya qoyduğu təsəvvür qarşıdurmaları, mürəkkəb situasiyaların yaşanmasını qaçılmaz etmişdir. Xalqın formalaşması tarixinə qədərki yolda etnik tarix ayrıca bir mərhələ kimi daha qədimləri və prosesin daha dərinliklərdə getmə mənzərəsini diqqət önünə gətirir. Coğrafiyanın ortaya qoyduğu təsəvvür, sosial-siyasi proseslərin mürəkkəbliyi, axınların (köçlərin) yurdsalma mücadiləsinin sərgilədiyi mənzərə orta əsrlərə nisbətən daha qədimlər dayanır və qədimlərə dayandıqca da müxtəlif səpkili mübahisələrə, fikir ayrılıqlarına yol açır.

Yaxın dövrün hadisələri timsalında Şimal və Cənub adı ilə baş verən işğalçılıq siyasəti üst qatda zədələnmələrə, imperiya ideologiyasından gələn təsirlərə, yeni nizama hesablanan sistemə bağlanırdısa, alt qatda tarixi yaddaşın, etnik şüurun oyanışı və özünüdərki əsas olaraq götürülürdü. *"Cənubunun İran, Şimalının da Rusiya tərkibində olduğu dövrdə Azərbaycanda milli dövlətçilik təfəkkürü, Azərbaycan xalqının bütövlüyü idealı sönmədi, lakin ölkənin Şimalı ilə Cənubu arasında sosial-siyasi, mədəni əlaqələrinin zəifləməsinin əsası qoyuldu. Bu o zaman baş verdi ki, ümummilli ideallarin formalaşmasına təkan verən dünya miqyaslı proseslər intensivləşməkdə idi. Və Azərbaycan Şərqlə Qərbin tarixi ziddiyyətlərini özündə bütün kəskinliyi ilə ehtiva edən bir ölkəyə çevrilirdi"* [1] **.** Güclü milli dövlətçilik ideyaları Cənub və Şimal boyu bütün təzyiq və sıxıntılara baxmayaraq, etnosun düşüncəsinin alt qatında həmişə olum//qalım səviyyəsində hərəkətdə olmuşdur. XX əsrin əvvəllərinin qaynarlığı, prosesin üst qata çıxması və mücadilə səviyyəsində özünü göstərməsi bunun parlaq örnəyidir. Rus imperiya təfəkkürü, eləcə də fars şovinizminin müəyyənləşdirdiyi prinsiplər üst

---

[1] Cəfərov N.Q. Azərbaycanşünaslığa giriş / N.Q. Cəfərov. - Bakı: Az AtaM, - 2002-. s.465

qatda bir-birindən nə qədər fərqliliklə görünsə də, ancaq aparıcı müstəvidə eyni niyət və marama köklənmişdi.

Azərbaycanın Şimal və Cənub qarışıq bütövlüyünü müəyyənləşdirən və bəşər sivilizasiyasına əvəzsiz töhfələr verən mədəniyyət şedevrləri bir istiqamətdə onun siyasi qanadını da özündə ehtiva etməklə və onu yönləndirmələrlə tarix yoluna davam etmişdir. Orta əsrlərin dərinliklərindən gələn kimlik mücadiləsi onun həm də xronotoplarını (zaman və məkan konseptini) bir bütöv olaraq diqqət önünə gətirir və arxaik vətən modelinin sonrakı zaman çərçivəsində sərgilədiyi təsəvvürə dayanır. XIX əsrin əvvəllərində Gülüstan müqaviləsi (12 oktyabr 1813-cü il),Türkmənçay müqaviləsi (10 fevral 1828-ci il) işğalçılıq hökm-fərmanının bütün aspektləri ilə formulasını ortaya qoydu [2] . Lakin etnosun dövlətçilik şüuru, böyük mədəniyyət yaratmaq mücadiləsi nə qədər sıxıntılara, geriçəkilmələrə məcbur edilsə də alt qatda ona qarşı dayanma düşüncəsini barışmazlıq anlamında formalaşdırdı. Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması və eləcə də Cənubda Məşrutə inqilabı (1905-1911-ci illər) və sonrakı dönəmlərin tarixi prosesi türk epos mifizmindən, Səfəvilərin vətən qurmaq mücadiləsindən (və s.) daşınıb gələnlərin görkü və davamlılığı idi.

Türk etnik metamodeli bir konsorsium olaraq türk qəbilə birlikləri səviyyəsində müəyyənləşmiş törə münasibətlərini, prinsip kutsallığını, sakral təsəvvürlərə bağlanan arxetipləri başlıca olan kimi əsas götürməklə həm də bütün zamanlar üçün mental yaşam və özünütəsdiq olaraq müəyyənləşdirmişdi. Tənbəni üsyanı (1891), Təbriz üsyanı (1906-1909), Cəngəlilər hərəkatı (1917-1921) və s. şah rejiminə və ingilis misseonerlərinin dağıdıcı avanturasına etiraz dalğası olaraq tarixə ağır möhürünü

---

[2] Azərbaycan tarixi. Ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər / - Bakı: Elm, - 1993.

vurmaqda idi. Milli dövlət ideyası və milli dövlətçiliyə köklənən etnik şüur bütün problemlərin kökünü imperiya müstəbidliyində, onun azlıqlara qarşı yönəldilmiş tarixi idarəçilik fəlsəfəsində görürdü. Bütün bunların köklü şəkildə həlli isə daim (və vaxtaşırı) pozulmuş nizamın bərpasına, şovinist təsəvvürlərin kökündən həlli amalına köklənirdi. Azərbaycan Sovet Sosialist Respublikası modeli sovetlər imperiyasının müəyyənləşdirdiyi dövlətçilik ierarxiyasında bilərəkdən (bəlkə də bilməyərəkdən) sövq-təbii etnik idealın mövcudluğuna, "qardaş respublikalar" timsalında oyanışına zəmin yaratmışdı. İmperiyanın dağılması (sovetlərin çöküşü) zamanından baxdıqda bunlar milli dövlət təfəkkürünün hərəkətliliyi üçün təbii funksiya daşıması ilə şərtlənir.

Milli hərəkatın dövrün ümumi xronikal mənzərəsi, ictimai-siyasi proseslərin geneoloji fakturası, tipoloji paralelizmi və mühitdə bədii estetik dərki məsələsi baxımından bir sıra aspektdə problemə diqqət yetirməyi gərəkli edir:

a) etnik mənsubluğun yaşam fəlsəfəsinin bir prinsip olaraq müəyyənliyi və onun invariant modelinin kutsallığına münasibət;

b) siyasi mühitin ideolojisinin xalq və toplumlara yanaşmasındakı baxış fərqlilikləri;

c) milli dövlət təsəvvürünün bütün parametrlərdə məhvinə yönləndirilmiş imperiya məfkurəsinin idarəçilik mexanizmləri;

ç) siyasi aparaturanın ortaya qoyduğu idarəçilik və yaşam fəlsəfəsinin tarixi yaddaşın dağıdıcılığına köklənməsi;

d) müəyyənləşmiş siyasi prinsiplərin rejim tərəfindən əsas götürməsinin bir məqsəd olaraq diktə və təlqini;

e) farslaşdırma tendensiyasının yuxarıdan aşağıya həyatın müxtəlif tərəflərində başlıca meyar kimi götürülməsi;

ə) milli dövlətçilik modelinin ümumtürk səviyyədə (hun-qıpçaq dövlətçiliyi və oğuz-səlcuq dövlətçiliyi) etnik şüurda dərki və oyanışı;

f) dövrün və mühitin reallıqları müstəvisində baş verənlərin gərginliklərə, qarşıdurmalara gətirib çıxarması və s.

Bütün bunlar Cənubi Azərbaycanda milli hərəkatın mahiyyətində olanları bir bütöv kimi diqqət önünə gətirir. Çünki böyük mədəniyyətin yaradıcıları olan xalqlar tarixin hansısa mərhələlərində qarşılaşdıqları problemləri həll etmək üçün həmişə tarixə və tarixi təcrübəyə istinad etməklə müşkülləri aradan qaldırmaq yolunu tutmuşlar. Təbriz, Zəncan Urmiya, Ərdəbil, Qəzvin, Həmədan və s. kimi böyük mədəniyyət ocaqlarında zənginləşmiş və müxtəlif zaman kəsiklərində tarixə töhfələr vermiş Cənub fars şovinizminin idarəçilik sterotiplərində müəyyənləşmiş prinsipləri qəbul etmək zorunda qalsa da, şüurun alt qatında vaxtaşırı ona olan mövqeni də ortaya qoyurdu. M.Ə.Möcüz, C.Məmmdquluzadə, M.Ə.Sabir, Ə.Qəmküsar, B.Abbaszadə, Əli Fikrət, Mir Mehdi Etimad, Mir Mehdi Çavuşi, Hilal Naşiri və başqalarının yaradıcılığında dövrün ictimai, siyasi və sosial mənzərəsi bütün təfsilatı ilə mahiyyəti ortaya qoyur. “İran inqilabı və Səttar xan hərəkatı, şah despotizmi və şərq mütləqiyyəti” məsələsi təfsilatı ilə ədəbi-mədəni mühitin düşüncəsində bir xətt olaraq əksini tapır. “Molla Nəsrəddin” jurnalındakı “Yaşa” adlı miniatur (1908) xalqın döyüş əzmini, mücadilə məramını diqqət önünə gətirir. C.Məmmədquluzadənin “İran fəhlələrinin pulu hara gedir”, “İranlılara”, “Həmşəri”, “Necə qan ağlamasın daş bu gün”, M.Ə. Sabirin “Zili-Sultana, amandır, verməyin İrana yol”, “Mən şahi-qəvi şəvkətəm, İran özümündür”, “Bura say”, “Millət şərqisi”, “Rədd ol qapıdan, ağlama zar-zar dilənçi”, “Əhli-İranda, pah oğlan, yenə hümmət görünür”,”Şura gəlib şad olun, iranlılar”, “Mürtəcelər, sevinin, kişvəri-İranə yenə”,

Ə.Qəmküsarın "Dolaşma", "Axund", "Eyləmə qəm", "Keçər", "Olsun", "İranlılar", "Sinəzən", "Bayramlıq", "Ey Məmdəli, bu növ ki, İrandan əkildin", M.Ə.Möcüzün "Ziyafət və fəlakət", "Millət", "Yoxdur əlac söylədi dərdi-cəhalətə", "Olar, olmaz", "İnqilab olacaq", "Olsun gərək", "Ey müsəlmanlar", "İran sərbazları" və s. dövrün siyasi mənzərəsini və bədii təfəkkür intelleksiyasının baş verənlərə münasibətini aydınlaşdırmaq üçün başlıca olandı. Ümumiyyətlə, ictimai-siyasi prosesin Azərbaycan müstəvisində Şimal və Cənub səviyyəsində dərki və ona münasibət bir problem olaraq tarixi yaddaşın müəyyənləşdirdiyi insanlıq konseptinə bağlanır. Ə.Qəmküsarın *"heç rəvadırmı əkinçi, ciftçi yeksər kam ala, nazi-pərvər şahzada küçələrdə ac qala"* [3] sualından M.Ə.Sabirin "*Zilli-Sultan, bura say döydürüb aldıqlarını, söyüb aldıqlarını, söydürüb aldıqlarını"* [4] söylədiklərinə qədər nə varsa, bütün olanlar pozulmuş nizamın, məmləkətin acınacaqlı mənzərəsinin reallıqlarından doğmuşdur.

İkinci yarımfəsil "**XIX əsr Azərbaycan ədəbi-mədəni mühiti, milli oyanışın özünü dərk və təşkil konsepsiyası" adlanır.**

Bu yarımfəsildə XIX əsr Azərbaycan xalqının tarixi, ictimai-siyasi, ədəbi-mədəni həyatında xüsusi bir mərhələ kimi diferensasiyalara, etnik təfəkkürün tarixi özünütəşkil instinktinə köklənməsi diqqətə çatdırılır. Tarixi-siyasi prosesin yeni sferası Nadir şahın ölümü, ayrı-ayrı coğrafi ərazi və məhəlli dövlətlər səviyyəsində xanlıqların yaranması ilə reallaşdı. Mərkəzdən qaçmalar etosun özünütəşkil konsepsiyasını tarixi problem olaraq ortaya qoysa da, həllini həyata keçirməkdə böyük çətinliklərlə

---

[3] Qəmküsar, Ə. Seçilmiş əaərləri / Ə. Qəmküsar. - Bakı: Şərq-Qərb, - 2006.-s.29

[4] Sabir, M.Ə. Hophopnamə / M.Ə. Sabir. - Bakı: Yazıçı, - 1992 - s.186

üzləşdi. Qarabağ, Şəki, Lənkəran, Bakı, Qaradağ, Təbriz, Marağa, Ərdəbil, Xoy, Quba və s. timsalında olanlar bunun örnəyi olaraq qarşıda müxtəlif təbəddülatlara yol açacaq proseslərin sonuclanması üçün əsas oldu. Tarixi prosesin dərki və onun həlli siyasi-ictimai, ədəbi-mədəni mühitdə nə qədər dərk olunsa da, ancaq qarşılıqlı ittihamları, iddialı mövqe və suçlama kimi tendensiyaları da qaçılmaz edirdi. Beləliklə, problemin dərki nə qədər qəbul olunur və asan görünürdüsə, həlli bir o qədər mürəkkəb təsəvvür formalaşdırırdı.

Genetik yaddaşın müəyyənləşmiş mənlik konsepsiyası siyasi sferada xanlıqların vahid dövlət arxetipini bir tərəf olaraq dərki ilə diqqət önünə gəlsə də, prosesin mürəkkəbliyi bunu reallaşdıra bilməyin çətinliyi ilə üz-üzə qalmışdı. Əvvəlki iki əsrdə yaranmış şedevrlər ("Koroğlu", "Tahir və Zöhrə", "Qurbani", "Abbas və Gülgəz", "Əsli və Kərəm", "Şahzadə Əbülfəz", "Seydi və Pəri" və s.), zəngin mərasim folkloru, çal-çağırlı elat-tərəkəmə həyat tərzi, müdrik el bilicilərinin, aşıqların zəngin söyləyici auditoriyası nəhəng mədəniyyətin yaranmasının qaynağına çevrildi. Xalq-folklor dili, etnosun yeni enerji potensiyası ilə özünü göstərməsi, Sarı Aşıq, Lələ, Aşıq Cünun, Aşıq Güllü, Xəstə Qasım, Abdalgülablı Valeh, Aşıq Səməd, Kəlibərli Əli, M.V.Vidadi, M.P.Vaqif, Sarı Çobanoğlu və s. timsalında olanlar tarixi-mədəni axarın yeni yüzilliyə nələrlə daxil olma mücadiləsinin göstəricisi idi. Kəndin xanlıqlar dönəmində xalqın mənəvi-mədəni istinadgahı olaraq özünü göstərməsi, qaynar elat həyatı, aşıq məclisləri, dastan, rəvayət, nağıl, bayatı, əfsanə, mərasim örnəkləri ilə boşluğu doldurması və aparıcılığı bir missiya olaraq üzərinə götürməsi bir mücadilə forması olaraq diqqət önünə gəlir. Xanlıqlarla pozulmuş ədalətsizliyi bərpa edən, azadlıq mücadiləsini reallaşdırmış olan xalq tarixi yaddaşa qayıdış formulasının axtarışında prosesin yeni mərhələsinə yüklənməklə bütövləşmənin, özünə qayıdışın

reallaşdırılması mərhələsinə qədəm qoyur. *"Azərbaycan intibahı kəndli şəxsiyyətini görünməmiş şəkildə yüksəldir, - bu, kəndin mədəni-ictimai mövqeyinin artması ilə əlaqədardır; məhz intibah təfəkkürünün faktıdır ki, kəndli ədəbiyyatı büt kimi görünür, - o həm nağılların, həm də lətifələrin qəhrəmanı kimi təqdim edilir"*[5]. Nadir şah dövlət səviyyəsində vilayətlərdəki problemi həll etmək mövqeyindən çıxış edirdisə, xanlıqlar dönəmində xanlar məsələyə kənd səviyyəsində yanaşırdı və bütün ictimai-siyasi mühitdə baş verən çatlar etnik-mədəni səviyyədə çoxluğun (xalqın) özünütəşkilinə yüklənirdi. XVIII əsrin sonu və XIX əsrin ümumi mənzərəsi etnosiyasi və etnokulturoloji prosesin axarını bin neçə kontekstdə təhlilə gətirməyi zəruriləşdirir.

a) XVIII əsrin sonu XIX əsrin əvvəllərinin ictimai-siyasi məfkurəsinin milli dövlət konsepsiyası;

b) XIX əsrin siyasi proseslərinin müəyyənləşdirdiyi strategi hədəflər və ədəbi-mədəni mühitin özünütəşkil və özünətapınma modeli;

c) Şimali Azərbaycan və Cənubi Azərbaycan adı ilə parçalanmanın mühit səviyyəsində ictimai-siyasi və bədii-estetik dərki;

ç) ədəbi-mədəni sferanın toplum timsalında problemin çözümünə hesablanan taktiki və strateji hədəflətinin müəyyənliyi;

d) etnokulturoloji məfkurənin arxaik dövlət modelinə köklənməsinin diaxronik mənzərəsi və hədəfə yönəlik fəaliyyət proqramı;

e) ədəbiyyatın yazılı qolu ilə folklor ədəbiyyatının eyni ruha köklənməsinin metamodel səviyyəsində dərki və bütövləşməsi və s.

---

[5] Cəfərov, N.Q. Azərbaycanşünaslığa giriş / N.Q. Cəfərov. - Bakı: Az AtaM, - 2002. - s.275

Bütün bunlar xanlıqlar dönəminin mücadilələri boyu milli dövlət konsepsiyasını reallaşdırmaq (və reallaşdıra bilməmək) mücadiləsinin nəticələri olaraq yeni mərhələdə prosesin daha da ağırlıqlara köklənməsinin göstəricisi olaraq diqqət önünə gəlir. Tarixi ədalətsizliyi, xalqın etnosiyasi və etnokulturoloji təsəvvürlərinə müdaxilə və təcavüz olaraq sonrakı dönəmin daha böyük problemlərlə yeni mərhələyə daxil olmasını faktlaşdırır[6].

I fəslin 3-cü yarımfəsli "**Cənubi Azərbaycanda milli hərəkatın yeni mərhələsi və ədəbi-mədəni mühitin prosesdə funksional rolu" adlanır.** XIX əsrin sonu və XX əsrin əvvəlləri Azərbaycan xalqının ictimai-siyasi, ədəbi-mədəni həyatında xüsusi bir mərhələ olaraq səciyyələnir. Onu da əlavə edək ki, bu təkcə Azərbaycan (Cənub və Şimallı) səviyyəsində deyil, bütünlükdə Avropa və Şərq timsalında gedən mürəkkəb proseslər səviyyəsində gərginliklərin və müxtəlifyönlü tendensiyaların təzahürü olaraq diqqət önünə gəlir. Məsələyə bir qədər geniş kontekstdə baxdıqda dünyanın siyası situasiyalaqında baş verən çatlar, qütbləşmələrin qaçılmazlığı birinci və ikinci dünya müharibəsi kimi çox ağır fəlakətləri iyirminci yüzilliyin adına yazmışdı. Cənubi Azərbaycanda da XIX əsrin sonu və XX əsrin mövcud zaman kəsiklərində milli oyanış və hərəkat adı ilə mücadilə meydanında olması sırf reallığın təzahürü idi. Fars şovinizminin "narahat məmləkət" adı ilə formalaşdırdığı təsəvvür diskursu stixial məzmunu ilə özlüyündə etnosun yüzillik boyu yığılıb qalaqlanmış problemlərini çözümə köklənməyi qaçılmaz edirdi. *"Müqəddəratını hüriyyətsevər və mədəniyyət dünyasının müqəddəratı ilə bağlamış Azərbaycan, hüriyyət*

---

[6] Şairlər vətəni bizim tərəflər. (tərtibçi S.Əhmədli, B.Vüsal) / Bakı: MBM, - 2010. – s.120

*və demokratiya cəbhəsinin son və qəti zəfərinə əsla şübhə etməz”* [7].

Cənubi Azərbaycanda XIX əsrin sonu və XX əsrin əvvəllərinin qaynar ədəbi-mədəni mühiti bu mübarizənin yönləndiricisi və bayraqdarı funksiyasını yerinə yetirirdi. Qəzənfər Təbrizi, Bəzmi (Ağa Mirzəli), Bəndə (Mirzə Məhəmmədrəzi), Dərviş Bülbül (Mirzə Məhəmmədtağı Təbrizi), Qəmdil Dilmani, Zühuri Hacı Əli Əttar Təbrizi, Baba (Mirzə Baba), Aşub Dilmani, Dünbüli (Bəhaəddin Məhəmməd Əbdürrəzzaq oğlu), Dilxun (Hacı Məhəmməd), Bərqi (Abdulla), Qari Mirzə Mehdi Təbrizi, Daniş ağa Mirzə Lütfəli, Zikri Küzəkühani, Dilgir (Kərbəlayi Məhəmməd Əttar), Hacı Vəkil, Dilxun (Hacı Məhəmməd), Əbdüləli Mirzə Gövgani, Ziyai Mərəndi, İlahi Həkim Ərdəbili, Yəlda ağa İsmayıl, Yusif Faludəpəz Təbrizi, Kaşif Qarabaği, Məzhər Mirzə Abbasquluxan Xoylu, Mötəmənülmülk Mirzə Səidxan, Nəcəfəli ibn Məhəmmədrza, Sabit Əndəbili, Kirmani Təbrizi, Əbdüllətif Təsuci, Dəxil (Axund Molla Hüseyn), Didə (Mirzə Nəsrullah bəy), Əbqəri Əmirxizi Təbrizi, və s. onlarla görkəmli ədib və ziyalıların apardığı mücadilə bunun parlaq örnəyidir.

Bütün bunların toplum səviyyəsində xalq tərəfindən dərki və problemin köklü səviyyədə həlli təkcə Cənubi Azərbaycan səviyyəsində deyil, ümumölkə müstəvisində ayaqlaşmalara, etirazlara gətirib çıxarmışdı. Mövcud situasiyalar arası və situasiya daxili prosesin ədəbi-mədəni mühitdə dərki və təqdimi bir neçə istiqamətdə yanaşmaları zəruri edir:

a) ümumi İran səviyyəsində etiraz və narazılıqları qaçılmaz edən ictimai-siyasi səbəblərin geneloji mənzərəsi;

---

[7] Rəsulzadə, M.Ə. Çağdaş Azərbaycan ədəbiyyatı / M.Ə. Rəsulzadə. - Bakı: Gənclik, - 1991. - s.86

b) rejimin toplumlara fərqli baxış və münasibətlərinin əlavə narazılıqlara yol açması;

c) Cənubi Azərbaycan timsalında böyük bir mədəniyyətin yaşadıcısı və daşıyıcısı olan xalqa fərqli münasibətin sərgilənməsi;

ç) arxaik yaddaş timsalında təsəvvür tiplərinin bütün səviyyələrdə sıradan çıxardılması ilə bağlı planlı fəaliyyətə münasibət;

d) etnokulturoloji müstəvidə siyasi mühitin şovinist mövqeyinin ədəbi-mədəni sferada dərki və s.

XIX əsrin sonu və XX əsrin əvvəlləri bütün müstəvilərdə milli oyanışın dərki və ictimai-siyasi proseslərin mürəkkəb diskurslarının özünü göstərməsi ilə şərtlənir. Böyük fikir mücahidləri Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, İsmayıl bəy Qaspralı, Yusif Akçuar, Ziya Göyalp, Məmməd Əmin Rəsulzadə, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Abusupyan Akayev və başqalarının ictimai-siyasi proseslər səviyyəsində ortaya qoyduğu konsepsiya etnosiyasi və etnokulturoloji proseslərin gediş formulasını müəyyənləşdirir. Cənubi Azərbaycan milli hərəkatının, məşrutə inqilabının bütün spektrləri məhz bu böyük ideoloqların müəyyənləşdirdiyi özünü dərk və özünü təşkil prinsipinə yüklənmişdi. Etnosun daxili ehtiyacını, tarixi dövlət qurma təfəkkürünün geneoloji qatını hərəkətləndirən fars şovinist rejini həyata keçirdiyi idarəçilik üsulu ilə narazılıqlara, etiraz dalğalarının yaranmasına və proseslərin inqilablara qədər inkişafına əsas olurdu. Onu da əlavə edək ki, bunlar təkcə Cənubi Azərbaycanda baş verənlərlə məhdudlaşmırdı, ictimai-siyasi proseslərin dünya çatında qarşıdurmalara, etirazlara yol açması Şimali Azərbaycanda da mahiyyət etibarı ilə elə də fərqlənməyən mücadilələrlə faktlaşır. Çar Rusiyasının sərhədləri daxilində baş verən ixtişaşlar, eləcə də Balkan ölkələrindəki mücadilələr, Çində və Yaponiyada özünü göstərən dalğalanmalar bunun nümunəsi idi. Şimali

Azərbaycanda gedən mücadilə son olaraq öz nəticəsini Azəbaycan Xalq Cümhuriyyətinin elan olması ilə reallaşdırdı[8].

Cənubi Azərbaycan ədəbi-mədəni mühitinin görkəmli nümayəndələrindən Sönməz, Səməd Behrəngi, Nasir Mənzuru, İsmayıl Hadi, Əli Fitrət, Mir Mehdi Etimad, Rəhim Cadniku, Müzəffər Derəfşi, Mirzə Hüseyn Kərimi, Barış, Yədulla Məftun, Ələkbər Həddad, Haşım Tərlan, Məhəmmədəli Məhzun, Gəncəli Səbahi, Səhənd, Həbib Sahir, Məmməhüseyn Şəhriyar, Məhəmməd Biriya, Süleyman Əmini və onlarla başqaları xalqın milli mücadilə hərəkatının ədəbi məfkurə ideoloqları olaraq ciddi mövqe nümayiş etdirmə tendensiyası ilə diqqət önünə gəlir.

*"Əsrimizin 40-cı illərində Cənubi Azərbaycanda yaranan demokratik ədəbi hərəkat bütün əriş-arğacı ilə özünə qədər mövcud olmuş bədii təfəkkür aləmi ilə bağlıdır"*[9]. Tarixi prosesin içinə aldığı ictimai-siyasi mühit və Cənubi Azərbaycan anlamında ehtiva olunanların olacaqlar timsalında doğurduğu problemləri, mücadilənin özgürlük, xaqla yönəlik işlənmiş işğalçılıq suçunun aradan qaldırılması timsalında gedən proseslərin dönməzliyini aydlnlaşdırır. Aparılan mücadilənin ədəbi mühit səviyyəsində dərki və onun təqdiminə yüklənməsi bir problem olaraq müxtəlif istiqamətlərdə yanaşmaları zəruriləşdirir

**Dissertasiya işinin II fəsli "Milli hərəkat dövrü Cənubi Azərbaycan ədəbiyyatının aktual problemləri"** adlanır və 2 yarımfəsildən ibarətdir.

---

[8] Balayev, M.A. Müasir dövr və fəlsəfi fikir / M.A. Balayev. - Bakı: ADPU, 2018. - s.135-136

[9] Əmirov, S.N. Cənubi Azərbaycan milli-demokratik hərəkatı (1941-1990-cı illər): / filologiya eımləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya / -Bakı: AMEA Nizami adına Ədəbiyyat İnstitutu, -2001.-s.14

“**Ədəbi-mədəni prosesin ümumi xülasəsi, mühiti dərk və təqdim modeli”** adlı I yarımfəsildə Cənubi Azərbaycan ədəbiyyatının milli hərəkat dövrü mahiyyəti, məzmun mündəricəsi ilə üfiqi və şaquli yanaşmalarda son dərəcədə möhtəşəm təsəvvürünün formalaşmasından bəhs edilir. Ədəbi-mədəni prosesin bu dönəmi müxtəlif səviyyələrdə sistemli yanaşmaların problemi olaraq təhlillərə yol açmış və sərgilədiyi paradiqmatik mənzərəsi ilə yeni-yeni yanaşmaların ortaya çıxmasını da qaçılmaz etmişdir. Tarixi-mədəni axarı ilə mifdən eposa, oradan dastana və son olaraq çeşidli biçimlərə yüklənən (eləcə də roman məfkurəsinə) ədəbiyyat şifahi və yazılı qolu ilə bütün zaman kəsiklərində tarixə yol yoldaşlığı etmişdir.

Ədəbiyyatın bədii-estetik ideallarının söykəc yeri və bütün ruhani dünyasının real və reallıqdan kənar yüklənməyə çalışdığı problem mövzu “aman ayrılıq” çırpntılarının xalq səviyyəsində aradan qaldırılmasıdır. Cənubun bu müstəvidə sxemləşdirdiyi və konsepsiya səviyyəsində reallaşdırmağa çalışdığı mücadilə proqramının bütün müddəaları siyasi səviyyədən çox-çox öncə ədəbi-mədəni sferada hazırlanmışdır. Məmməhüseyn Şəhriyar, Məhəmməd Biriya, Sönməz, Səməd Behrəngi, Süleyman Əmini və onlarla başqalarının ortaya qoyduğu milli kimlik konsepsiyası etnosun bütün səviyyələrində milli oyanışı yeni sferaya daşıdı.

Mədəniyyət quruculuğu etnik müəyyənliyin kodu olaraq ədəbiyyatın şifahi və yazılı qolu arasında bağlantıları daha da möhkəmləndirir. Məişətin bütün tərəflərində bir dəyər kimi özünü göstərən özgürlük nişanələri ona doğru gedişi və əsas götürməni başlıca olan kimi ön xəttə çıxarır. Mərasim folklori, mif örnəkləri, atalar sözü, məsəl, tapmaca, əfsanə, rəvayət, nağıl, dastan, inam, etiqad və s. nə varsa hamısı bədii-estetik düşüncənin hərəkətverici qaynağı kimi əsaslı funksiya daşımaqla, həm də digər səviyyələrdə axarın buna hesablanmasını zəruriləşdirir. Cənub və Şimal

arasında olan sərhəddi könül bağları, ruhani dünyanın batini hayqırtısı körükləməklə onu pərən-pərən edir. Şimalda S.Vurğunun "el bilir ki, sən mənimsən" səsləndirməsinin ecazkarlıq effekti ilə Cənubda M.Şəhriyarın "Heydərbaba, yolum səndən kəc oldu"su bütün zamanların şovinist məfkurəsini alt-üst etdi, eyni zamanda mücadilənin vətənqurma konseptinin formulasını ortaya qoydu.

*Nədir bu həsrətin adı, ünvanı,*
*Baisin evində işıq yanmasın!*
*Ah, Araz, ah, Araz, vədimiz hanı?*
*Bir ürək ikiyə parçalanmasın*![10].

Siyasi müstəvidə "bir ürəyi ikiyə parçalayan" tarixi proses fars və rus müstəbidliyində baş verənlərdən çıxış etməklə ona qarşı duracaq müqavimət hərəkatını da bətnində həmişə körükləmiş və milli hərəkat dönəmində də buna rəvac vermişdir. Keçən əsrin otuzuncu illərində dünya düzənində gedən qütbləşmələr, güc mərkəzlərinin işğalçılıq təsəvvüründə oturuşmuş insanlığa (və xalqlara) xəyanət modeli özünün yeni sferasına daxil olur.

Milli hökümətin süqutundan sonra xalqını ürəkdən sevən yazıçıların əksəriyyəti, ictimai xadimlər mühacir ömrü yaşamaq məcburiyyətində qaldılar. Yüksək ideallarla yaşamış və bəşər sivilizasiyasına əvəzsiz töhfələr vermiş xalq yaşamının daha dəhşətli təqiblər, fəlakətlər sferasına daxil oldu. Bütün məhrumiyyətlərə baxmayaraq, ədəbi-mədəni mühit öz yoluna şərəflə davam etməklə xalqa sahib durmaq missiyasını yerinə yetirdi. Yaradıcı axtarışlarında baş verənlərin müxtəlif səviyyələrdə, birbaşa və ya metaforik formaları mühiti ifadəyə kökləndi. M.Şəhriyarın "Heydərbabaya salam"ı bu durğunluğa "bomba" kimi düşdü. Bundan həvəslənən Səhənd, Sönməz, Həddad, Sahir və s. kimi sənət fədailəri daha fəal yazıb-yaratmağa

---

[10] Vurğun, S. Seçilmiş əsərləri. 2 cilddə, I c., /S. Vurğun. - Bakı: Azərnəşr, -1976. - s. 221

başladılar. Mühacir şair və yazıçılar – B.Azəroğlu, M.Gülgün, H.Billuri, Ə.Tudə, S.Tahir, İsmayıl Cəfərpur, Hüseyn Cavan və s. demokratik ədəbiyyat xəzinəsini öz qiymətli əsərləri ilə zənginləşdirdilər. Cənubi Azərbaycan ədəbi-mədəni mühiti fəaliyyətinin yeni sferasına daxil olmaqla, poeziya, nəsr, dram, publisistika timsalında funksional rolunu ortaya qoydu, möhtəşəm uğurlara imza atdı. Bütün bunlar ədəbi-mədəni prosesin ümumi axarı timsalında mühiti dərk və təqdim səviyyəsində etnosun mükəmməl fəaliyyət proqramı ilə sonrakı dönəmlərin hadisələrinə kökləndiyini aydınlaşdırır.

II fəslin 2-ci yarımfəsli **“Milli hərəkat öncəsi və milli-hərəkat dönəmi ədəbi mühitin milli mənsubluq missiyası”** adlanır. Bu yarımfəsildə keçən əsrin ortaları Cənubi Azərbaycanda ictimai-siyasi proseslərdəki dalğalanmalar, situasiya mürəkkəblikləri diqqətə çatdırılır. Xalq narazılıqları, əhalinin illər boyu yığılıb qalmış problemləri, dolanışıq çətinliyi, sosial vəziyyətin getdikcə ağırlaşması, ana dilinə olan yasaqların daha da çoxalması, milli-mənəvi dəyərlərin zədələnməsi, farslaşdırma siyasətinin daha açıq sferaya daxil olması ciddi narazılıqlara səbəb olmaqda idi. Şimalda bolşeviklərin sərt tədbirlər paketi ilə xalqa repressiyalar yaşatması, Cənubda bu proseslərin digər bir formada tətbiqi və s. onsuz da azalmayan gərginliklərin üzərinə əlavə gərginlik gətirirdi. Ədəbi-mədəni mühitin olanları və ola biləcəkləri öz içərisindən keçirməklə müxtəlif səviyyələrdə mövqe nümayiş etdirərək haqq səsini qaldırmaqda idi. Rejimin mahiyyətini, böyük mədəniyyət təsəvvürləri ilə yaşayan bir etnosa qarşı irticaçı mövqeyini ortaya qoyan folklor ədəbiyyatı, eləcə də yazılı ədəbiyyatın ayrı-ayrı səviyyələrdə sərgilədiyi mənzərə sırf reasllığı ifadəyə koklənmişdi. Bayatı, nəğmə, əhvalat, rəvayət, məsəl, lətifə, el sənətkarlarının repertuarında səslənən müxtəlif məzmunlu örnəklər bunun göstəricisi idi. Rza şaha, ayrı-

ayrı mənsəb sahiblərinə ünvanlanm bədii nümunələr rejimə münasibətin ifadəsi kimi bütün məmləkət boyu geniş arenada yayılmaqda idi.

Publisistikanın funksional çəkisi, lətifə, kiçik həcmli satirik poetik şeir örnəkləri sürətlə geniş auditoriyaya yayılmaqda idi. Cənubla Şimalın XX əsr boyu təcrid olunma müstəvisində prosesə yüklənməsi və prosesin siyasi kontekstdə etnosun diferensasiyası məsələsinə köklənməsi, genetik kodların sarsıdılması hər iki tərəfdə dövlət siyasəti səviyyəsində reallaşır. Xalqın isə özünütəşkil modelində milli yaddaşda olanları qoruyub saxlamağa üstünlük verməsi və onları bir dəyər olaraq gələcəyə daşıması sırf reallığa bağlanır. Bədii təxəyyül, fəlsəfi-estetik məfkurə bunları bir kod olaraq içində sərgiləməklə Şimalla Cənubun Təbrizdə görüşünə doğru irəliləyirdi. S.Vurğundan Şəhriyara, S.Rüstəmdən Səhəndə, M.Rahimdən Sönməzə olan yol əslində üst qatda olandan daha çox alt qatda olana, daxili dərinliklərdən süzülüb gələn ruhani oyanışa bağlanırdı. Qərbin bu prosesi soyuqqanlılıqla izləməsi, öz mənfəətləri üzərindən münasibəti Şimal və Cənub timsalında Təbrizdə və Bakıda özlüyündə diplomatik görüşdən başqa bir şey deyildi. Bütün bunların dərki və situasiyanın reallığa uyğun olaraq irəliləməsinə soyuqqanlı münasibətin gözlənməsini zəruri edirdi.

Siyasi proseslərin təlatümləri ədəbi-mədəni mühitdə yaradıcılıq axtarışlarını, özünəməxsus ifadə üsullarını, mətn//mühit səviyyəsində xalq təfəkküründə qəlibləşmiş modellərdən yararlanmağı bir zərurət olaraq diqqət önünə gətirir. Burada təkcə Sabir və Mirzə Cəlil ruhu deyil, xalq ədəbiyyatından gələn ifadəlilik üsulları, əhvalat, hadisə, motiv çalarlarının spesifik modelləri özünü göstərməyə başlayır. Ezop üslubundan ciddi mövqe sərgiləməyə qədər bir rəngarənglik xalqı hərəkətə, inteqrasiyadan çox təmərgüzləşməyə yönləndirməklə möhtəşəm bir ədəbiyyat fakturasını ortaya qoyurdu. Rəngarəng üslublardan

karikaturalara qədər bir genişliyi əhatə edən Cənubi Azərbaycan ədəbi-mədəni mühiti poeziya, nəsr, səhnə əsərləri və publisistika ilə mühiti yönləndirməyə üstünlük verirdi. Metaforik üslub, sintaqmatik səviyyə, janr fenomenliyi, mündəricə əhatəliliyi tarixi prosesin ana axarında konkret zamanın mərhələ formulasını hazırlayır. Toplumun mücadilə konsepsiyasını rəngarəng üslubların ortaqlığında normativləşdirir. Folklor ədəbiyyatı və bədii düşüncənin yazılı qolu bütün parlaqlığı ilə baş verənləri, bir xalqa düşünülmüş şəkildə yönəlmiş təqibləri, manqurtlaşdırma tendensiyasını məram olaraq çatdırmaya köklənir. "Ürəkdə min yaram vardır, yazıq millət, yazıq millət, sənə hər ləhzədə öz canını qurban edən yandı" (S.Rüstəm) fars şovinizminin etdikləri və olanlar timsalında reallığın rəsmi kimi diqqət önünə gəlir. Mətn informasiyasının sərgilədiyi məzmun bütünlükdə Azərbaycan boyu baş verənlərin nələrə kökləndiyini, tarixi yaddaşın hansı müşküllərlə baş-başa qaldığını, "bilinməyir yaşın sənin, nələr çəkmiş başın sənin" (S.Vurğun) düşüncəsinin hansı mətləbləri işarələdiyini faktlaşdırır.

S.Behrəngi, M.Savalan, M.Qaflantı, A.Bariz və s. onlarla, yüzlərlə ədiblərin prosesin ümumi ruhuna köklənməsi və xalqla birgə addımlaması özlüyündə "inqilab şairi" təsəvvürünü ədəbi-mədəni mühitdə təbii axarda meydana gətirməkdə idi.

Əmir Xosrov Darainin, Məmmədəli Məhzunun, Həbib Sahirin, Məmmədhüseyn Şəhriyarın, Mir Mehdi Çavuşinin, Haşım Tərlanın, Yəhya Şeydanın, Müzəffər Dirəfşinin, Sönməzin, Savalanın, Səhəndin, Firidun Hasarlının, Əlirza Habdil Oxtayın, Hüseyn Düzgünün, Adsızın (Əli Şərif Dilçuyi), Gəncəli Səbahinin, Rəhim Cadnikunun, Səməd Behrənginin, Mərziyə Üskülünün, Bağır İftixarinin və başqalarının zəngin ədəbi istedadı mühiti ifadəyə yönlənməklə, həm də vətənpərvərlik

nümunəsi olaraq böyük ədəbiyyatın ümumi axarında ayrıca mərhələ olma təsəvvürünü formalaşdırır.

*Mən zaman şairiyəm,*
*Qələmim qan yazacaq, qan yazacaq,*
*Məni şair yaradıb ölkəmizin faciəsi.* [11].

Baş verənlər timsalında ədəbi-mədəni prosesin ümumi mənzərəsini bir neçə istiqamətdə təhlilə gətirməyin zərurəti yaranır.

a) milli hərəkat öncəsi ədəbi-mədəni mühitin müəyyənləşdirdiyi millilik konsepsiyası;

b) vətənpərvərlik ideyasının bir kateqoriya olaraq təqdim məramından inqilabi mücadilənin aparıcı formulu səviyyəsinə qaldırılması;

c) romantik və realist pafos hüdudlarında xalqın oyanışının dərk və təqdimi;

ç) milli mənsubluğun siyasi sistem tərəfindən zədələnməsinə ədəbi-mədəni mühitin yanaşma tendensiyası;

d) sosial sferanın hərəkətliliyinin təşkilinə yönlənmiş bədii örnəklərin sərgilədiyi mənzərə və ifadə özünəməxsusluğu;

e) ana dili ilə bağlı mövcud yasaqların aradan qaldırılmasına yaradıcı mühitin sərgilədiyi mənzərə;

ə) milli dövlət səviyyəsində problemin sonuclanması və s.

Dissertasiya işinin III fəsli "**Milli hərəkatın Cənubi Azərbaycan poeziyasında motivləşmə səciyyəsi**" adlanır və 5 yarımfəsildən ibarətdir. III fəslin I yarımfəslində "**Milli hərəkat dönəmi və ondan əvvəlki onillikdə Cənubi Azərbaycanda poeziya müstəvisində ədəbi prosesin ümumi xülasəsi**" təhlil edilmişdir. Məlumdur ki, Cənubi Azərbaycanın ictimai-siyasi, ədəbi-mədəni mühitində Milli hərəkat dönəmi xüsusi bir mərhələdir. Ümimiyyətlə,

---

[11] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası / 4 cilddə, IV c., - Bakı: Elm, - 1994, - s.9

müxtəlif səviyyələrdə üfiqi və şaquli təhlillərlə diqqət önünə gələn bu dönəm etnik müstəvidə öz potensiyasını xalqın ortaya qoya bilməsi baxımından əvəzsizdir. Çeşidli gərginliklərin, siyasi qarşıdurmaların, milli zəmində proseslərin mürəkkəbliyi ilə səciyyələnən iyirminci yüzillik Cənubi Azərbaycanda bütün kontekstlərdə xalqın mücadilələr dönəmi olaraq diqqət önünə gəlir. Cənubi Azərbaycan poeziyasında bu bütün aspektləri ilə özünü təfərrüatlı şəkildə əks etdirmək məramı ilə diqqət önünə gəlir. Çünki böyük tarix yaradan və son dərəcədə mükəmməl ideallara köklənən ədəbiyyat, xüsusilə Azərbaycan ədəbiyyatı xalqın tarixi qədər zəngin və əhatəlidir. Əski təsəvvürdən, inam və etiqadlardan, mifik zamandan eposa və oradan da orta əsrlərə gələn yolun təbii mənzərəsini ədəbiyyat qədər özündə əks etdirəcək ikinci bir yaradıcılıq sahəsini tapmaq çətindir.

Milli hərəkat dönəmi, eləcə də ondan əvvəlki onilliklərdə və ondan sonrakı dönəmdə poeziyanın daşıdığı funksional rol sırf mühiti ifadəyə, dövrün, zamanın, ictimai-siyasi çevrənin ortaya qoyduğu irtica konsepsiyasını dağıtmağa, xalqı toplum olaraq hərəkətliliyə, mücadiləyə köklənmişdi. Əlbəttə burada etnik dəyərlərin təbliği, onun mərasim folkloru səviyyəsində ifadəliliyi, ailə, sosial çevrə münasibətlərinin kutsallığı, sakral mədəniyyət kodunun cəmiyyətə aşılanması, vətən, torpaq sevgisi, məhəbbət duyğularının uca tutulması, bədii-estetik zövqün model olaraq milli səviyyədə müəyyənliyi və s. məsələlər yeni şəraitə uyğun səviyyədə poeziyanın mövzu zənginliyini sıralayırdı. Xazin Təbrizinin, Mirzəli Siqqətülislamın, Cabbar Əsgərzadə Bağçabanın, Təqi Rüfət Təbrizinin, Ələkbər Dehxudanın, Dilgirin və başqalarının yaradıcılığı mövzu və möndəricə, fikrin ifadə üsullarının zənginliyi ilə dövrün ədəbi mühitdəki stixial axarını müəyyənləşdirir.

Onun üfiqi və şaquli müstəvidə aydınlığı isə bir neçə istiqamətdə təhlillərin aparılmasını zəruriləşdirir:

a) klassik ənənə müstəvisində prosesin ümumi axarının sərgilədiyi mənzərəni aydınlaşdırmaq;

b) etnokulturoloji sistemin milli mənsubluq kodunu hansı səviyyədə ifadə etməsi imkanlarını bir bütöv olaraq müəyyənləşdirmək;

c) mühit (lokal) səviyyəsində arxetiplərin hərəkətliliyinin poeziyada özünə yer alması və onun sərgilədiyi məzmun;

ç) mətn fenomenliyi, sözün məna yaddaşı və janr məzmunu baxımından ədəbi mədəni prosesin sosial sferanı, ictimai-siyasi prosesləri dərki və onu ifadə üsulları;

d) ictimai şüurun bazis əsasında etnik mənsubluğun oyanışına və özünü ifadəyə köklənməsi və s.

Haşım Tərlan, Yəhya Şeyda, Müzəffər Dirəfşan, Sönməz, Savalan, Firidun Hasarlı, Əlirza Nabdil Oxtay, Hüseyn Düzgün, Gəncəli Səbahi, Səməd Behrəngi, Bağır İftixari, Mərziyə Üskülü və s. sənətkarların zəngin yaradıcılıq axtarışları etnik bütövlüyü ifadə üzərində müxtəlif səpkili poetik örnəklərin ortaya çıxması ilə müəyyənləşir. Burada dil faktoru, üslub rəngarəngliyi, milli ruh, vətənqurma mücadiləsi, demokratik dəyərlərin bərpası və bu sistem üzərində dayanışın normativliyi, insani dəyərlərin uca tutulması, sevgi, məhəbbət duyğuları, təbiətin füsunkarlığı və s. kimi məsələlər başlıca mövzu olaraq sıralanır. Bunların hamısı etnik bütövlüyün qorunuşu və gələcəyə daşınışı timsalında ədəbiyyatın ana axarına bağlanır. Məsələn, Ə.X.Darainin "Zaman şairi", "Qışda bahar", "Nazü qəmzə öyrənir", "Özüm-özümə", M.Məhzunun "Arzu", "Vətənim Azərbaycan", "Azərbaycanlı qardaşlarıma", "Təbriz", "Ayrılıq", "Göy-göl", "Açıq süfrələrə", "Naxələf övladlar barəsində" , "Qəzəli-hicran", "Könül", "Olsa", H.Sahirin "Otur", "Qar yağıb üstümə", "Nə anladıq", "Mahnı", "Xəzan", "Yurd mahnısı", M.Şəhriyarın "Heydərbabaya salam", "Zamanın səsi", "Süleyman Rüstəmə məktub", "Səhəndə məktub",

“Şeir və hikmət”, “İki qardaş arasında”, M.M.Çavuşinin “Şəhidlərə”, “Sülh nəğməsi”, “Bülbülün arzusu”, Yədulla Əmininin “Xalqın heybəti”, “Yanar dağ”, “Yeli səsləyirik”, “Ərk”, A.Barizin “Ustad Şəhriyara salam”, “Olmayım neylim”, “Qış gəlir”, “Kef çəkməli günlər”, “Məcnun kimi”, H.Tərlanın “Şah gedər oldu”, “Görürəm”, “Azərbaycan əncüməninə”, “Sən də bir ulduzsan”, Y.Şeydanın “Yolu getmək gərək”, “Şəhidin qanı”, “Qan bayrağı” və s. bütünlükdə milli hərəkat dönəmi ədəbi prosesin ümumi dinamikası və mövzu zənginliyində novator ifadə mədəniyyətinin göstəricisi olaraq mükəmməl bir zənginliyə bağlanır. Sönməz “Mən ana deyəndə” şeirində mühitin ümumi ruhu timsalında semiotik işarələnmənin hansı dərinliklərə bağlandığını və məzmun qatlarında fövqəlzamanlıq səviyyəsində nələri ehtiva etdiyini bir etnik potensiya olaraq ortaya qoyur[12].

**III** fəslin 2-ci yarımfəsli **“Mühiti dərk və ifadədə ictimai-siyasi lirikanın funksional rolu”** adlanır. Burada Cənubi Azərbaycanda milli hərəkat dövrü poeziyanın təhlilində mühüm istiqamətlərdən birini icitimai-siyasi mövzuda yazılmış poetik örnəklərin araşdırılması müəyyənləşdirilir. Ümumiyyətlə, poeziyanın funksional rolu bütün zamanlarda mühit səviyyəsində aparıcılığı öz üzərinə götürməklə həmişə möhtəşəm təsəvvür formalaşdırmışdır. Xalqın milli-mənəvi tələbatını, ruhani ehtiyaclarını, məişətini, hiss və duyğularını, dünyagörüşünü, istək və arzularını poeziya qədər əks etdirəcək və onu oxşayacaq ikinci bir sənət sahəsi demək olar yoxdur. Ona görə də müdriklər poeziyanı xalqın rübabının səsi olaraq təsəvvür etmişlər. Klassiklərin zəngin yaradıcılığı, ayrı-ayrı əsrlərin yaddaşına öz möhürünü vurmuş sənət abidələri bunun bariz örnəyi kimi diqqət önünə gəlir və onlar

---

[12] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası / 4 cilddə, III c., - Bakı: Elm, -1988. - s.144

yaratdıqları söz gülşəni ilə əsrlərdən-əsrlərə keçib gələcəyə doğru addımlayırlar. Azərbaycan ədəbiyyatının sərgilədiyi mənzərə Cənub və Şimal səviyyəsində möhtəşəm təsəvvür formalaşdırmaqla, həm də etnik potensiyanı ortaya qoyur. 2-ci yarımfəslin 1-ci paraqrafında "**Vətənin etnik özünütəşkil formulu kimi dərki və obrazlaşma miqyası**" problem olaraq qoyulur və ictimai-siyasi, ədəbi-mədəni sferanın təfəkküründə, ən önəmli olan ümummilli səviyyədə müəyyənləşdirilir. Bütün bunlar isə milli hərəkat dönəmi və bütünlükdə iyirminci yüzilliyin mücadilə tarixində Vətənin baş mövzu olaraq ədəbiyyatın ümumi axarına istiqamət verdiyini olanlar timsalında aydınlaşdırır. III Fəslin 2-ci yarımfəslinin 2-ci paraqrafında "**Siyasi mühit və milli hərəkat dövrü siyasi lirikanın mücadilə fəlsəfəsi**" araşdırmaya cəlb edilmişdir.

Məşrutə inqilabı, Xiyabani hərəkatı təbii dalğalanmalarda siyasi (və inqilabi) lirikanın (hətta ədəbiyyatın) yaranmasını Cənub səviyyəsində ortaya qoydu.

M.Səfvət, Ə.Dehxuda, Ə.Fitrət, İ.Zakir, C.Kaşif, F.Məhzun, M.M.Etimad, H.Sahir, Həddad, H.Nasiri, H.Səhhaf, M.Şəhriyar, M.M.Çavuşi, Coşğun, M.T.Milani, H.Cavan, M.Hiknam, H.Tərlan, B.Azəroğlu, Məftun, M.Dirəfşi, Y.Şeyda, Ə.Tudə, İ.Cəfərpur, S.C.Nikbin, H.Billuri, M.Gülgün, S.Tahir, Səhənd, Kəmali, Hüşyar və s. onlarla sənətkarın yaradıcılığı bunun örnəyidir. "Ya azad ol, ya tamam yan Azərbaycan" harayının əks sədası bütünlükdə məmləkətin mücadilə devizi kimi milli hərəkat dönəmini, ondan əvvəl və sonrakı dönəmin siyasi prosesinin mahiyyətini sərgiləyir.

Cənubda gedən proseslər xalqın hərəkətliliyi timsalında fədailər ordusunu formalaşdırmaqla baş verənlərin (siyasi, iqtisadi, mədəni müstəvidə) birdəfəlik aradan qaldırılması qənaətini qaçılmaz edirdi. Ədəbi proses təkcə ayrı-ayrı sənətkarlar timsalında deyil, bütünlükdə xalq və millət səviyyəsində hadisələrin çözümü üçün etirazı,

üsyanları qaçılmaz edirdi. B.Azəroğlu, Y.Şeyda, H.Tərlan, S.Tahir, M.Şəhriyar və başqaları nəinki milli hərəkat dönəminin mənzərəsini, mücadilə məfkurəsini yazıya gətirir və həm də sonrakı proseslərin axarı haqqında təsəvvür formalaşdırırdılar. Atadan oğula gedən yol timsalında bir mücahidlik, şəhidlik məqamını diqqət önünə gətirməklə prosesin dönməzliyini işarələyir və örnək olaraq "atamın məzarı səngəri oldu" reallığını örnək kimi göstərir.

Xalqın etnik dəyərlərinin zədələnməsi, islahatların keçirilməməsi, aclıq və səfalətin baş alıb getməsi, məmur özbaşnalıqları, işsizliyin törətdiyi acılar, ana dilinin yasaqlanması, mətbuat azadlığının olmaması, senzuranın azad sözə kəskin mövqe sərgiləməsi və s. problemlər inqilabi düşüncənin formalaşmasını qaçılmaz edirdi. M.Məhzunun "Azərbaycanlı qardaşlarıma", "Təbriz", "Vətəndən, qohumlardan, eldən ayrılarkən", "Məclisi-milli", H.Sahirin "Xəzan", "Yurd mahnısı", "Qurbanlıq", M.Şəhriyarın "Zaman səsi", "Süleyman Rüstəmə cavab", "Səhəndə məktub", H.Tərlanın "Görürəm", "Azərbaycan əncüməninə", Y.Şeydanın "Qan bayrağı", "Şəhidin qanı" və s. nümunələr inqilabi ruhun ifadəliliyi ilə nəzər-diqqəti cəlb edir və mühiti bu amala köklәmək kimi funksiyaya yüklənir[13].

Bütün bunlar Cənubi Azərbaycan ədəbi mühiti timsalında ədəbiyyatın ictimai-siyasi prosesə münasibətini, xalqın azadlıq mücadiləsini, vətənin bütövlük fəlsəfəsini təfsilatı ilə sosial topluma çatdırmaq amalına köklənir. 3-cü paraqrafda "**Ana dili, mətbuat, söz azadlığı, məktəb və təhsil problemlərinin poeziyada bədii ifadəsi"** məsələsi araşdırmaya cəlb olunur.

Cənubi Azərbaycanda gedən proseslərdə inqilab öncəsi və inqilab zamanı əhalinin maariflənməsi, elm,

---

[13] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası / 4 cilddə, IV c., - Bakı: Elm, - 1994. - s.126

təhsil, məktəb, ana dili və s. məsələlər dövlət səviyyəsində həmişə ciddi şəkildə qaldırılmış və həllini gözləyən məsələ kimi bütünlükdə məmləkət üçün hərəkətliliyin güclənməsini zərurətə çevirmişdi. Milli hərəkat dövrü poeziyada da səsləndirilən tələblər sırasında da bunlar vacib olan kimi diqqət önünə gətirilirdi. Ələkbər Dexuda, Əli Fitrət, İbrahim Zakir, Cəfər Kaşif, Fəxrəddin Məhzun, Mir Mehdi Etimad, Həbib Sahir, Həddad, Hilal Nasiri və başqalarının yaradıcılığı Cənub səviyyəsində problemlərin mürəkkəbliyini və xalqa qarşı yönələn məkrli siyasəti diqqət önünə gətirir.

XX əsr Azərbaycan ədəbiyyatının əvəzsiz şairi M.Şəhriyar etnik şüur, milli mövcudluq anlamında yaratdığı poetik örnəklərlə xalqın ruhunu ayağa qaldıracaq bir funksiyada görününr. Rejimin ana dilinə, milli-mənəvi dəyərlərə qənim kəsildiyi bir zamanda "Heydərbabaya salam", "Türkin dili", "Səhəndə məktub", "Aman ayrılıq" və s. kimi şedevrləri yaratması Şimal və Cənub səviyyəsində milli hərəkətliliyin və milli özgürlüyün devizi olaraq ortaya çıxdı; bütünlükdə etnosun ruhani dünyasını hərəkətə gətirməklə həm də məşəl, mayak funksiyasını yerinə yetirdi.

*Türkün dilitək sevgili ehsaslı dil olmaz,*
*Ayrı dilə qatsan ədəbiyyat əsil olmaz*[14].

Milli oyanışın hərəkətliliyi aşağıdan yuxarıya bütünlükdə Cənubi Azərbaycan boyu ayaqlaşmanı və muxtariyyat verilməsindən söz azadlığına, Azərbaycan dilində mətbu orqanlarının yaranmasına, maariflənmə işinin düzgün qurulmasına qədər geniş bir tədbirlər paketini əhatələyirdi. Az bir müddət içərisində "Azərbaycan", "Azad millət", "Cavanlar", "Günəş", "Qələbə", "Yeni Şərq", "Urmiya", "Cövdət", "Şairlər məclisi", "Azər",

---

[14] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası / 4 cilddə, III c., - Bakı: Elm, -1988. - s.126

"Azərbaycan ulduzu", "Vətən", "Maarif", "Şəfəq", "Demokrat" və s. kimi mətbu orqanlarının yaranması və fəaliyyəti milli düşüncənin oyanış dalğası olaraq əlçatmaz bir möhtəşəmliyi sərgiləyirdi. Azərbaycan dilində geniş oxucu kütləsinə ünvanlanan bu mətbu orqanlarında yazılan yazılar bir istiqamətdə publisistik üslubun formalaşması baxımından əvəzsizliklə diqqət önünə gəlirsə, digər istiqamətdə bütünlükdə gediləcək yolun məzmunun konseptual şəkildə cızırdı. Gedən proseslər Azərbaycan dili müstəvisində üslubların şəbəkəli şəkildə əhatəliliyini, yazışmalar baxımından rəsmi üslubun, işgüzar deyim tərzinin formalaşmasını da bir prinsip olaraq diqqət önünə gətirir.

Şimallı və Cənublu XIX əsr boyu davam edən yeni tipli məktəb məsələsi, dərslik problemi, müəllim kadrların yetişdirilməsi, ana dilində tədrisin aparılması, mütərəqqi dərs üsulları ilə tədrisin qurulması, anlaşıqlı mətnlərin uşaqlara aşılanması, əxlaqi-mənəvi dəyərlərin təlqini istiqamətində aparılan işlər Milli hökumət dönəmində də bir prinsip olaraq əsas götürülmüşdü.

Bütün bunlar Cənubi Azərbaycanda poeziya müstəvisində ana dili, mətbuat, söz azadlığı, məktəb və təhsil problemlərinin geniş kontekstdə funksional səciyyəsini aydınlaşdırır.

Dissertasiya işinni IV fəsli **"Milli hərəkat dövrünün bədii nəsr və publisistika da ümumi səciyyəsi"** adlanır və 3 yarımfəsildən ibarətdir. I yarımfəsildə "**Milli hərəkatın bədii nəsrdə paradiqmatik mənzərəsi"** tədqiq edilir.

Şifahi ədəbiyyat müstəvisində gedən proses əfsanə, nağıl, rəvayət, dastan və s. timsalında bir qaynaq olaraq yazı mühitində də özünün aparıcı missiyasını qoruyub saxlamış və müxtəlif dönəmlərin yaradıcı axtarışlarında üslub, forma və ifadə zənginlikləri ilə ruhun qorunuşuna bağlanmışdır. Cənubi Azərbaycan bədii nəsri fundamental paradiqmatik

səviyyəsi ilə mövzu rəngarəngliyində və yaradıcılq axtarışalrında həmişə etnik müəyyənliyi əsas götürməklə dövrün ümumi ruhuna köklənmişdir. Mirzə Əbdürrəhim Talıbov, Zeynalabdin Marağayi, Doktor Tağı Ərani, Seyid Cəfər Cavadzadə, Mirzə ağa Təbrizi, Gəncəli Səbahi, Qəhrəman Qəhrəmanzadə, Rəhim Cadniku, Səməd Behrəngi, Mərziyə Üskülü (Dalğa), Bağır İftixari, Abbas Pənahi, Fəthi Xoşginabi, Həmid Məmmədzadə və başqalarının yaradıcılığı bədii nəsrin inkişaf dinamikasını və onun polifonik mənzərəsində olanları aydınlaşdırmaq üçün mühüm faktura ilə diqqət önünə gəlir.

1941-1946-cı illərdə, istər irtica dövründə (1947-1978), istərsə də İslam inqilabından sonra yaranan nəsr əsərləri yaratdığı möhtəşəm təsəvvürlə diqqət önünə gəlir. H.F.Xoşginabi, B.Hayili, Q.Qəhrəmanzadə, Aydın, Həbibə, Ərməğani və sair kimi yazıçıların 1941-1946-cı illəri əhatə edən əsərləri etnosun bədii təfəkkürünün enerjisi olaraq səciyyələnir. Nəzərə almaq lazımdır ki, Cənub nəsrinin irtica dövrü barədə (1947-1978) xeyli yeni fikirlər irəli sürülmüşdür. Həbib Sahirin, Rəhim Cadnikunun, Gəncəli Səbahinin, Səməd Behrənginin, İsmayıl Hadinin, Nasir Mənzurinin qələm məhsulu olan nəsr örnəkləri tarixi-mədəni prosesin mənzərəsini aydınlaşdırmaq üçün lazımı qədər material verir.

Cənubi Azərbaycan demokratik nəsrinin sanballı nümunələrini yaratmış Gəncəli Səbahi, Səməd Behrəngi, Rəhim Dəqiq, İsmayıl Hadi, Nasir Mənzuri kimi nəsr ustalarının yaradıcılıqları üfiqi və şaquli yanaşmalarda dövrün mədəni-ictimai prosesin fəlsəfəsini və tarixi reallığın bədii-estetik mənzərəsini aydınlaşdırmaq üçün əsas mənbə sayılı.

IV fəsli 2-ci yarımfəsli **“Cənubi Azərbaycanda milli hərəkatı publisistikanın qavrama və təqdim prinsipləri”** adlanır. Publisistika bütün mahiyyəti ilə təbliğat, təşviqat və ideoloji istiqamətləndirmə funksiyası ilə

hərəkat dönəmlərində müstəsna imkanlılıqla nəzər-diqqəti cəlb edir. Dövrün, mühitin, ayrı-ayrı zaman hüdudlarında baş verən hadisələrin miqyası publisistikada olan qədər fəal və imkanlı mövqe ilə görünmür. Müxtəlif formalarda (oçerk, felyoton, sənədli novella, pamflet, bədii gündəlik, sənədli povest, bədii nitq, məktub, açıq məktub, səyahətnamə və s.) ifadəlilik qazanan publisistika Azərbaycan ədəbi-mədəni mühitində həmişə özünəməxsus və orijinal düşüncə tiplərinin ortaya çıxması üçün əsas olmuşdur. Böyük tarixi gələnəyə bağlanan bu düşüncə üslubu Cənubi Azərbaycanda XIX əsrdən bu yana gedən proseslərin geniş auditoriyaya çatdırılmasında müstəsna rolu ilə diqqət önünə gəlir. Məktub-müraciətlər, müxtəlif səpkili yazışmalar hələ mətbuatın yaranışına qədər ağırlığı üzərinə götürməklə sonrakı mərhələnin ümumi dinamikasına işıq tutmuşdur.

Azərbaycanın çar Rusiyası və fars şovinizmi miqyasında istilası təkcə poeziya və nəsr, səhnə əsərləri səviyyəsində milli dəyərlərin qorunuşuna istiqamətləndirmədi. Ziyalı mühitinin geniş ictimaiyyətlə təmasları maariflənmə baxımından publisistikanın rolunu həm də ön xəttə çıxardı. XIX əsr boyu gedən proses həmişə çoxalan istiqamətdə özünü göstərmiş və son olaraq milli mətbuatın yaranması ilə nətcələnmişdi. Şimalda müəyyən zaman kəsiklərində azərbaycanlı ziyalıların rusdilli mətbuatda çıxışları və müxtəlif problem mövzularda məqalələri publisistikanın dinamik mənzərəsini müəyyənləşdirir. “Şərqi-Rus”, “Həyat”, “Füyuzat”, “Molla Nəsrəddin”, “İrşad”, Tazə həyat”, “Tərəqqi”, “Dəbistan”, “Məktəb”, “Zənbur”, “Rəhbər”, “İqbal”, “Açıq söz”, “Kəlniyyət”, “Şəlalə”, “Hilal”, “Yoldaş”, “Sədayi vətən”, “Şəhabi söz”, “Nicat”, “Dirilik”, “Bəsirət”, “Hümmət” və s. mətbu orqanları publisistik mühitdə zənginləşmənin ümumi mənzərəsini bir bütöv olaraq diqqət önünə gətirir. Ümumiyyətlə, *“mətbuat ictimai fikir tariximizin müxtəlif və*

*ziddiyyətli çağlarında hər zaman milli dirçəlişimizin ən güclü vasitələrindən biri olmuşdur. O geniş kütləri tərbiyələndirən, onları öz mütərəqqi ideyaları ətrafında cəmləşdirən, onlarda ictimai fikir formalaşdıran ən əsas kütləvi informasiya vasitəsi hesab edilir"* [15] . Cənub və Şimal Azərbaycanında gedən proseslər miqyasında mətbuat ictimai-siyasi, ədəbi-mədəni mühitin problemləri əhatə etməklə eyni mıəfkurəyə dayanacaq ideya-estetik prinsipləri öz mahiyyətində əsas olaraq götürürdü. Müxtəlif zaman kəsiklərində baş verənlərə fəal mövqe nümayiş etdirməyi bir məram olaraq qarşısına qoyan publisistika etnik tipologiyanı bir bazis olaraq əsas götürür. Şimalda yaranan mətbuat dili, publisistik üslub Cənubun da malı olur (eləcə də əksinə) və bunu özü üçün kənardan gəlmə, xarici hadisə kimi qəbul etmir, əksinə özününkü hesab etməklə, prosesin gedişinə zənginləşmə baxımından töhfələrini verir. *"XX əsrin əvvəllərində Şimalda mətbuat orqanlarının artması publisistik üslubun ifadə imkanlarını genişləndirir, diferensasiya prosesi gedir, bədii publisistik, elmi publisistik və siyasi publisistik dil təşəkkül tapır*[16].

Səttarxanın başçılıq etdiyi məşrutə hərəkatı öz qaynağını xalqın tarixi mücadilə məfkurəsindən götürürdüsə, sonrakı mərhələdə Şeyx Məhəmməd Xiyabani bu mübarizənin (1920-1921) ideoloqu olaraq pozulmuş tarixi ədalətsizliyi yerinə qoymaq yolunu tutmaqla prosesin dönməzliyini fəaliyyəti ilə etnosa bir daha təqdim etdi. 21 Azər, İran İslam inqilabı (1979) xalqın azadlıq mübarizəsinin müəyyənləşmiş proqram-nizamnaməsi ilə milli məfkurədə olanları reallaşdırmağa köklənir. Milli

---

[15] Məmmədova, R.Ə. "Açıq söz" qəzetində milli mətbuat və jurnalist sənətkarlığı məsələləri: / filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı / - Bakı: AMEA Folklor İnstitutu, - 2022. - s.3

[16] Cəfərov, N.Q. Azərbaycanşünaslığa giriş / N.Q. Cəfərov. - Bakı: Az AtaM, - 2002. - s.536

hökumət dönəmi və ondan bir qədər əvvəlki prosesin mücadilə konsepsiyası bütün postulatlarını publisistik üslubdan çıxış etməklə geniş ictimaiyyətə təqdim edir. "Azərbaycan", "Azad millət", "Maarif", "Şəfəq", "Yeni Şərq", "Qələbə", "Cövdət", "Urmiyə", "Cavanlar", "Günəş", "Demokrat", "Azər", "Vətən", "Azərbaycan uilduzu", "Şairlər məclisi" və s. mətbu orqanları xalqın informasiya ehtiyacının ödənişində əvəzsiz rol oynamaqla, həm də publisistik üslubun zənginləşməsi sahəsində gərəkli addımlar atdılar.

Poeziyanın, nəsrin, dramaturgiyanın deyib çatdıra bilmədiyi bir şəraitdə publisistika dövriyyəyə girir. Daha doğrusu, ədəbi-mədəni mühitin xalqı ifadəyə yükləndiyi bir şəraitdə və mühitin mürəkkəb situasiyalarla qarşı-qarşıya qaldığı zamanda informasiya ehtiyacını öncülləmək, prosesin mahiyyətini geniş ictimaiyyətə çatdırmaq üçün publisistika da müstəsna rolla özünü göstərir[17].

Ümumiyyətlə, mətbuatın yerindən, zamanından aslı olmayaraq mövqeyi və nüfuzedici təsiri həmişə müstəsnalıqla özünü göstərib. Azad söz, azad mətbuat cəmiyyətin döyünən ürəyi, düşünən beyni funksiyasını yerinə yetiribdir və Cənubda gedən proseslərdəki rolu bunun bariz göstəricisidir. Bütün bunlar Cənubi Azərbaycanda mətbuatın funksional rolunu və cəmiyyətin təşkilində, azadlıq uğrunda apardığı mübarizədə müstəsna imkanlılıqla mühitə təsirini göstərir.

IV fəslin 3-cü yarımfəsli "**Milli hərəkat dövrü dramaturgiya və onun problemləri"** adlanır və burada zəngin mədəniyyət örnəkləri ilə ucu-bucağı görünməyən təsəvvür formalaşdıran ədəbiyyatın Cənub qolu dramaturgiyanın inkişafı və tipik örnəklərin yaranması araşdırılmış və təhlil edilmişdir. Poeziyanın, nəsrin,

---

[17] Xəndan, C.Z. Seçilmiş əsərləri, II cild. / C.Z. Xəndan. - Bakı: Çaşıoğlu, 2010. - s.169

publisistikanın uğurları timsalında elə də rəngarəngliklə səciyyələnməyən ədəbiyyatın bu qolu nisbətən zəif, həm də ağır gedişi ilə diqqət önünə gəlir. Milli hökumət dövründə ictimai-mədəni həyatın bütün sahələrində özünü göstərən canlanma teatrda olan durğunluğu da aradan qaldırmaq yolunu tutdu. Milli hökumətin fəaliyyəti dövründə atdığı ilk addımlardan biri Təbrizdə Azərbaycan dövlət dram teatrının yaranması idi.

Keçən əsrin 40-cı illərində dram əsərlərinin səhnələşdirilməsi sahəsində atılan uğurlu addımlar xalqın milli-mənəvi dəyərlərinin bəbliğ və təlqinində müstəsna rol oynadı. "Məşdi İbad", "Arşın mal alan", "Laçın yuvası", "1905-ci il", "Aşıq Qərib", "Sevil", "Od gəlini", "Qaçaq Kərəm" və s. kimi əsərlərin Təbrizdə tamaşaya qoyulması xalq arasında böyük canlanmaya səbəb oldu. Teatr xalqın milli ruhunun oyanışında, yüksək əxlaqi dəyərlər uğrunda mücadiləsində təsiredicilik baxımından xüsusi önəm daşıyırdı. Milli hökumət dönəmində "Anamın kitabı" geniş kütlənin baş verənlər timsalında özünüdərki, çağırış rolunu oynadı.

Yazı mühitində Azərbaycanda dram əsərlərinin yaranması XIX əsrin ortaları ilə bağlanır. Böyük marifçi, nasir, dramaturq, ictimai xadim M.F.Axundovun yaratdığı dram əsərləri başlanğıc rolunu oynadı və sonrakı zaman kəsiklərində dramaturgiyanın sürətli inkişafı, kəmiyyət və keyfiyyət boyartımı üçün əsas oldu. Öz qaynağını xalq dramlarından götürən bu sahə həm də dünya dramaturgiyasındakı yaradıcılıq ənənələrindən yararlanmaqla böyük bir inkişaf dinamikası ilə diqqət önünə gəlir. Şimali Azərbaycanda olan bu canlanma Cənubda ictimai-siyasi rejimin basqıları altında yüksək nailiyyətlərlə özünü göstərə bilmədi.

Mirzə Ağa məşrutə inqilabı dönəmində "Həşəratül ərz", "İstiqlal", "Haleyi-millət" qəzetində də publisistik məqalələri ilə çıxış etmişdir. Cənubi Azərbaycan

ədəbiyyatında dramaturq kimi tanınan ədibin komediyaları xalqın acınacaqlı vəziyyəti, səfalət içərisində yaşaması, iqtisadi çətinliklərin dözülməzliyi bütün tərəfləri ilə ifadəsini tapır. Dövrü mətbuatda müxtəlif zamanlarda kitab şəklində dəfələrlə çap olunmuş və Şimalda Azərbaycan dilinə tərcümə edilərək "Elm" nəşriyyatında işıq üzü görmüşdür.

Ümumiyyətlə, Mirzə Ağa Təbrizinin dramaturgiyası İrandakı siyasi rejimin mahiyyətini, şah, vəzir və ətrafı timsalında baş alıb gedən özbaşnalıqları əks etdirmə baxımından əvəzsizdi. Məsələn, "Əşrəf xanın sərgüzəşti" dörd pərdəli, dörd şəkilli komediyasında saray səviyyəsində baş alıb gedən hərc-mərclik, rüşvətxorluq və s. ifadəsini tapır.

Ədəbi-mədəni mühit bütün kontekstlərdə real mənzərəni, İran səviyyəsində gedən müstəbidliyin əndazədən çıxmasını bir tərəf olaraq diqqət önünə gətirir. M.F.Axundovun *"Mürafiə vəkillərinin hekayəti" Təbrizdə baş verən qeyri-insani davranışların, mənsəb sahibləri səviyyəsində olan alb-aldatmaların ümumi mənzərəsidir və bunun başında isə yuxarıdan aşağıya pozulmuş nizam dayanır*[18].

Milli hökumət dönəmi teatrın çiçəklənməsi üçün geniş imkanlar göründü və mənəvi-ideoloji mühitin formalaşmasında səhnə əsərlərinin funksional rolu daha çox aydınlıqla özünü göstərdi. Bir neçə adda teatr truppalarının yaranması bunun nümunəsi idi. Əvvəlcə konsertlər səviyyəsində fəaliyyətə başlayan dəstələr az keçmədi ki, teatr kollektivinə çevrildi. Qızların teatrlara cəlb olunması işinə başlandı. M.F.Axundovun "Hacı Qara" komediyası, S.S.Axundovun "Eşq və intiqam", Ü.Hacıbəyovun "Aşıq Qərib" operası və "50 yaşında cavan" musiqili komediyası

---

[18] Axundov, M.F. Bədii və fəlsəfi əsərləri / M.F. Axundov. -Bakı: Yazıçı, - 1987. - s.152

böyük coşqu ilə Cənubda qarşılandı Görkəmli dramaturq C.Cabbarlının bir neçə pyesi, S.Rəhmanın "Hücum davam edir" və s. əsərlər səhnələşdirildi. Xalqın milli-mənəvi tərbiyəsində teatrın rolunun müstəsna funksiyası aydınlıqla özünü göstərdi. Ayrı-ayrı mətbu orqanlarında (məsələn, "Bakinski raboçi" qəzetinin 19 avqust, 1945-ci il) prosesin Cənubda doğurduğu əhvali-ruhiyyə geniş şəkildə işıqlandırıldı. Teatrın Təbriz şöbəsinin üzvü Rəsuli yazır ki, mədəniyyət evi əməkdaşlarının köməyi ilə teatr kollektivi əsil teatr yoluna qədəm qoyur. Şimal və Cənub səviyyəsində gedən bu milli-mədəni proses özlüyündə biri digərini tamamlamaqla möhtəşəm təsəvvür formalaşdırırdı.

Mirzə Ağa Təbrizinin həyat və yaradıcılığından araşdıran Əbülfəzl Hüseyni vurğulayır ki, keçmiş istilalar imkan versəydi, səhnəmiz inkişaf zirvəsinə çatardı. Cənubi Azərbaycanda xalq arasında geniş şəkildə yayılmış və möhtəşəm təsiredici funksiyası ilə yüz illəri aşıb gələn meydan tamaşaları, şəbihlər bunun örnəyidir. Lakin təəssüf ki, fars şovinizmi Cənubda dramaturgiyanın təsir funksiyasını nəzərə alaraq inkişafına sipər çəkməyi bir məqsəd olaraq qarşısına qoymuşdu. Milli oyanış dönəmlərində bu sahədə uğurlu və perspektivə söykənən addımlar atılsa da irticaçı rejim inqilabın uğurlarını məhv etmə yolunu tutduğu kimi, teatrın da inikşafına eyni düşüncə ilə çıxmışdır. *"1946-cı il hadisələrindən sonra teatr öz qüdrətini bərpa edə bilmədi. Məşhur rejissor Səməd Səbahinin Tehranda Azərbaycan dilli əsərləri tamaşaya qoymaq təşəbbüsü uğursuzluqla nəticələndi. Hətta, bu qüdrətli sənətkarın ömrünə sirli şəkildə son qoyuldu"*[19]. Bütün bunlar Cənubda dramaturgiyanı və səhnənin yaşayıb, üzləşdiyi aqibət idi.

---

[19] Əmirov, S.N. Cənubi Azərbaycan milli-demokratik hərəkatı (1941-1990-cı illər): / filologiya eımləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya / -Bakı: AMEA Nizami adına Ədəbiyyat İnstitutu, -2001. - s.265

Cənubi Azərbaycanda dramaturgiyasının banisi Mirzə Ağa Təbrizi sayılır. Mənbələr M.A.Təbriziyə qədər də Cənubibda dram janrına aid müəllifi olmayan örnəklərin mövcudluğunu vurğulayır.

Cənubda iyirminci yüzillik boyu gedən proseslər və ədəbiyyatın bu hərəkətlilikdə funksional rolu zəngin mövzu axtarişları, baş verənləri yüksək təfəkkür intelleksiyası, poetexnoloji vasitələrlə ümumiləşdirməyə köklənmişdir. Tarixi gələnəyin aparıcı rolu poeziya, nəsr və publisistikada ortaya qoyduqlarını dramaturgiyada reallaşdıra bilməmişdir.

Tədqiqat işinin V fəsli "**Cənubda Milli hərəkatın bədii ədəbiyyatda əks etdirilməsinin forma və üsulları**" adlanır və 2 yarımfəsildən ibarətdir. V Fəslin 1-ci yarımfəsli "**Sosial-siyasi, mənəvi-ideoloji təqdimatda sənətkarlıq axtarışları**" adlandırılmaqla milli hərəkat dönəmi hadisələrinin bədii ədəbiyyatda əks etdirməsinin forma və üsullarının aydınlaşdırır.

Ədəbi prosesin ayrı-ayrı sənətkarlar şəxsində və ümumilikdə poeziya müstəvisində əhatələdiyi məzmun bütün aspektləri ilə mükəmməl mənzərə ortaya qoyur. Diqqətçəkici mənzərə məzmun qatı ilə hansı təsəvvürlərə yüklənirsə, onun digər bir tərəfi milli məfkurə ifadə üsulları ilə açılma zərurəti yaradır və bütün bunlar bir neçə istiqamətdə təhlillərin aparılmasını gərəkli edir:

a) sosial-siyasi proseslərin məzmununda özünü göstərən ifadəlilik formullarının tipiklik səciyyəsi;

b) sintaqmatik sırlanmanın nitq janrları səviyyəsində təzahür formaları;

c) poetik modelləşdirmədə subyektin özünü ifadə normativləri;

ç) arxaik təsəvvürdən gələn ifadə etiketlərinin etnik kutsallığı əks etdirmə üsulları;

d) üslub paradiqmasının mühit səviyyəsində unikallıq mənzərəsi;

e) klassik ənənədən gələn sintaktik fiqurların mühiti canlandırmada kəsb etdiyi yeni məna çalarları;

ə) yaradıcılıq aktında işarəvi dilin mətndən kənar ehtiva etdiyi məzmun;

f) mətn daxili semantik tamlığın bütövlüyündə özünü göstərən invariant elementləri və s.

Bütün bunlar mühitin sosial-siyasi, mənəvi-ideloji sferasında baş verənləri əks etdirmənin sintaqmatik mənzərəsini və janr səviyyəsində mətn unikallığının gerçəklik tipini müəyyənləşdirir. Çünki *"sözün ifadəliliyi yalnız onun ifadə etdiyi mənadan yox, yəni yalnız onun leksik mənasından yox, həm də onun stilistik siqlətindən, eləcə də sözün akustik çalarından tutmuş assosiativ-emosional çalarına qədər başqa sözlərlə müxtəlif əlaqələrindən də asılıdır"* [20].

*Cənubda ədəbi dilin norması ilə bağlı müəyyən elmi müşahidələr aparılır, lakin üslubların vəziyyəti barədə tədqiqat işlərinə, demək olar ki, təsadüf edilmir; buna ehtiyac var, ona görə ki, normanın neytrallığına rəğmən üslub ictimai varlığın bilavasitə əksi kimi maraqlıdır, - bədii, publisistik, müəyyən qədər də elmi üslubun funksional məzmunu Cənubda Şimaldakına nisbətən fərqlidir"* [21] . Bunlar isə özlüyündə mühit timsalında bədii, elmi, publisistik təfəkkürün səviyyəsi ilə şərtlənir ki, bu da düşüncə tipləri və çatdırma modelləri yaradıcı axtarışları ilə əlavə genişlənmələrə köklənir. Ümumiyyətlə, *"bütün dövrlərdə sənətkar sənətkardır, onda həyatın mürəkkəb proseslərini, bənzərsiz hadisə və əhvalatlarını duymaq, qavramaq və mənalandıra bilmək bacarığı qüvvətlidir. O, dünyaya olan baxışlarını düşüncəsinə hopan faktlardan*

---

[20] Щмелев, Д.Н. Слово и образ / Д.Н. Щмелев. - Москва: Наука, - 1964. -s.61

[21] Cəfərov, N.Q. Azərbaycanşünaslığa giriş / N.Q. Cəfərov. - Bakı: Az AtaM, - 2002. - s.557-558

*alır* [22]. Cənub mühitində gedən proseslər, siyasi arenanın ortaya qoyduğu müstəmləkə məfkurəsi, xalqın hüquqlarını, etnik dəyərlərinin sarsıdılması, ana dilinə qarşı olan qadağalar və s. bütünlükdə baş verənlər sərt həyat reallığı olaraq da bədii mətnə gətirilir. Onun təqdim modelləri sənətkarın duyum, qavram səviyyəsinə bağlanmaqla həm də yaradıcı axtarışlarında yeni üslubların, deyim formalarının yaranmasını qaçılmaz edir.

V fəslin 2-ci yarımfəsli "**Folklor simvolikasının və etnoqrafik dəyərlərin bədii örnəklərdə funksional-semantik rolu**" adlanır. Burada məqsəd Cənubi Azərbaycanda milli hərəkatın bədii ədəbiyyatda inikasının metodoloji baxımdan təhlilində mühüm olan problem məsələlərdən biri olan folklor və etnokrafik mənzərənin funksional-semantik rolunun aydınlaşdırmaqdan ibarətdir. Bütünlükdə Cənub mühiti bir mədəni proses olaraq spesik formulası ilə mifik yaddaşdan süzülüb gələn və epos təsəvvüründə mükəmməlləşən etnik mədəniyyət kodlarını əsas götürməklə zənginləşmə keçirmişdir. Xalqın zəngin mədəniyyət arxetipləri invariant səviyyəsində olanları bir məram olaraq gələcəyə daşımağa və bazis səviyyəsində qoruyuculuq missiyası ilə onun təlqininə yüklənir. Nəzm, nəsr və dram əsərlərində, eləcə də publisistikada bunlar meyar (həm də prinsip) kimi müəyyənləşir, yaradıcı mühit siyasi prosesdə itirdiklərini, vətənin bütövlük formulunu bədii düşüncədə qoruyub saxlamaqla yoluna davam edir. Lokal, milli və ümumtürk səviyyəsində boy göstərən nitq etiketləri, unikal təqdim və ifadə üsulları, janr paradiqması, sözün məna yaddaşı və s. hamısı olanları ilə şüuraltı qatda müəyyənləşmiş kanonik mükəmməlliyə bağlanır və qaynaq olaraq onu əsas götürür.

---

[22] Hacıyev, A.M. Ədəbiyyatşünaslığın əsasları / A.M. Hacıyev. - Bakı: ADPU, - 2010. - s.98

XVII-XVIII yüzillik boyu gedən proseslər və eləcə də XIX əsrin ortaya qoyduğu tarixi ədalətsizlik etnos səviyyəsində coğrafi sferada (eləcə də dövlətçilik baxımından) itkilərə yol açdısa, toplum bu itkini mənəvi sferada folklordan gələnlərlə, daha doğrusu, "Koroğlu", "Tahir və Zöhrə", "Qərib və Şahsənəm", "Əsli və Kərəm", "Abbas və Gülgəz", "Arzu və Qəmbər", "Yaxşı və Yaman", "Xəstə Qasım və Mələksima", "Valeh və Zərnigar" və s. şedevrlərlə doldurdu. Mücadilə və mövcudluq yolunda da bunları bir prinsip olaraq götürməklə yazı mühitində də əfsanə, rəvayət, nağıl, xalq mərasimi, məsəl, atalar sözü, nəğmə və s. örnəklərin forma və ifadə üsullarından yaradıcı şəkildə bəhrələnərək zənginləşir. Şüurdakı modelin sintaqmatik gerçəkləşməsi Ş.M.Xiyabani, S.C.Pişəvəri, Ə.Dehxuda, Ə.Fitrət, İ.Zakir, C.Kaşif, F.Məhzun, M.M.Etimad, H.Sahir, M.Şəhriyar, Sönməz, Səhənd, G.Səbahi, Q.Qəhrəmanzadə, R.Cadnikun, S.Behrəngi, B.Azəroğlu, H.Billuri, S.Tahir, Ə.Tudə, M.Gülgün, M.Üskülü, B.İftixari və s. ədiblərin timsalında xalq ədəbiyyatından gələnlərlə mühiti ifadə baxımından örnəyə çevrilir.

Dünya ədəbiyyatının möhtəşəm abidələri xalq ədəbiyyatının zənginliklərindən istifadə əsasında yaranmışdır. Ümumiyyətlə, ən dərin və parlaq, bədii cəhətdən ən mükəmməl ədəbiyyat nümunələri xalq tərəfindən yaranmışdır[23].

Bayatı, nəğmə, əfsanə, rəvayət, nağıl, dastan və s. janr zənginliyində özünü göstərən nitq etiketləri Cənub poeziyasında daha aparıcılıqla nəzərə çarpır. Toplumu ifadənin və milli mücadilə dönəmində topluya təsiri müstəsna imkanlılıqla reallaşdırır. Bütün bunlar kontekstində Cənubi Azərbaycanda milli hərəkatın bədii

---

[23] Quliyev, E.H. Seyid Məhəmmədhüseyn Şəhriyar / E.H. Quliyev. - Bakı: Mütərcim, - 1999. - s.43

ədəbiyyatda xalq yaradıcılığından gələnlər baxımından canlandırılmasını bir neçə istiqamətdə təhlil etməyin gərəkliyi yaranır:

a) mühitin mövcud problemləri səviyyəsində folkora müraciətin üsul və formaları;

b) arxaik yaddaşda olan mənəviyyat elementlərinin bər dəyər kodu olaraq aparıcı müstəviyə çıxarılması;

c) siyasi ideolojinin yeritdiyi tendensiyanın mahiyyətinin etnosa çatdırılamsı baxımından folklor və etnoqrafik mədəniyyət kontiniumunda (element çoxluğu) olanların funksional rolu;

d) etnoqrafik elementlərin milli dəyər vasitəsi olaraq dərkinin cəmiyyətə aşılanması;

e) yaradıcı axtarışlarında sənətkarın özünüifadə baxımından folklorun müstəsna rolunun mətn//mühit səviyyəsində görünüşü;

ə) mühitdə toplumu ifadənin folklor kontekstində müstəsna rolunun dərki;

f) süjet, hadisə, əhvalat, janr səviyyəsində yaradıcı mühitin folklordan bəhrələnməsinin yeni şəraitdə sərgilədiyi mənzərənin ümumi səciyyəsi və s.

Bütün bunlar Cənubi Azərbaycanda milli hərəkəatın bədii ədəbiyyatda canlandırılmasının sənətkarlıq baxımından funksional-semantik rolunu aydınlaşdırmaq üçün müstəsna önəm daşıyır[24].

Cənubi Azərbaycan ədəbiyyatı milli hərəkat dönəmi, ondan əvvəl və sonra bütün postulatları ilə folklordan bəhrələnməyi, etnoqrafik dəyərlər üzərindən canlandırma aparmağı bir dəyər olaraq özündə müəyyənləşdirir. Eyni zamanda hərəkatın intibah işarələnməsi olaraq özünü göstərməklə toplumun bu ruha köklənməsini mərama çevirir. M.Şəhriyarın "Heydərbabaya salam"ı məhz etnosun

---

[24] Şükürova, E.S. Məhəmmədhüseyn Şəhriyar (həyatı, mühiti, yaradıcılığı) / E.S. Şükürova. - Bakı: Maarif, - 1999. - s.168

özünü ifadəsinin örnəyi olaraq xalqın ruhani dünyasının ifadəsi kimi püsgürmüşdür.

Bədii nəsr nümunələri, publisistika, eləcə də dramaturgiya nə qədər ləng və ağırlıqla inkişaf prosesi keçirsə də, bütün gecikmələrə baxmayaraq, böyük yaradıcı axtarışları və orijinal dünücə nümunələri ilə möhtəşəmlik qazandı. Milli hərəkat dönəminin ümumi mənzərəsi, eləcə də ondan əvvəlin və sonrakı dönəmin prosesləri timsalında etnoqrafik dəyərlərin ümumi ifadəliliyinə köklənir.

M.Ə.Talıbovun, Z.Marağayinun, M.H. Rüşdinin, M.A.Təbrizinin, D.T.Əraninin, S.C.Pişəvərinin, G.Səbahinin, A.Pənahinin, F.Xoşginabinin və başqalarının yaratdığı bədii örnəklər folklor simvolikası, xalq yaradıcılığının üsul və vasitələrindən yararlanma prinsipləri, janr paradiqmasının funksional xarakteri ilə ciddi bir möhtəşəmlik qazanır və milli müəyyənliyin örnəyi olaraq daha geniş müstəvidə araşdırmaları zəruriləşdirir.

Dissertasiyanın yekunu olaraq aşağıdakı **nəticələr** əldə edilmişdir.

1. Cənubi Azərbaycanda milli hərəkatın (1941-1946) bədii ədəbiyyatda inikasının möhtəşəmliyini və tarixi-xronikal mənzərəsinin mükəmməl sistem səviyyəsində dominantlığını diqqət önünə gətirməklə səciyyələnir. Ədəbiyyatın şifahi və yazılı qolunun Dədə Qorquddan üzü bu yana sərgilədiyi faktura etosun ictimai-siyasi, bədii-estetik, ədəbi-mədəni diaxroniyasını gələcəyə daşımaqla gəlinən yolun ümumi mənzərəsi haqqında dolğun təsəvvür formalaşdırmaq missiyasına köklənmişdir. Mifdən eposa daşınan bu zənginlik protürkdən və sonrakı çağların türk dövlət qurma məfkurəsinə dayanmaqla cahanşümul cəmiyyət modelini bir prinsip olaraq əsas götürmüşdür.

2. Cənubi Azərbaycandakı on doqquzuncu yüzillikdən özünü göstərən milli hərəkat dalğalanmalarla yeni şəraitdə arxaik yaddaşı bərpaya, pozulmuş nizamın bərqərar olunmasına yüklənmiş və həm də onu reallaşdırmağın

konsepsiyasını öz içində hazırlamağı qərarlaşdırmışdır. Ədəbiyyat üsə bu ziqzaqlı gedişlərdə funksional məzmunu ilə toplumun əxlaqi-mənəvi dünyagörüşünü, etnokulturoloji sistemini özgürlük konsepti olaraq folrmalaşdırmaq funksiyasını yerinə yetirir.

3. Sinxron və diaxron yanaşmalarda tarixi-mədəni prosesin ümumi mənzərəsi onun ictimai-siyasi axarı timsalında invariantları əsas prinsip olaraq müəyyənləşdirməklə yoluna davam edir. Çar Rusiyası və İran fars dövləti tərəfindən Azərbaycanın ikiyə bölünməsi və prosesin sonrakı dönəmindəki hadisələrin müstəmləkə məfkurəsindəki formulası parçalanmadan əvvəlki və sonrakı zaman hüdudlarındakı diferensiyaların gedişini diqqət önünə gətirir. Məlum olduğu kimi, XVI əsrin intibah prosesi və Səfəvilərin bir dövlət kimi reallaşdırdığı ideoloji sistem ictimai-siyasi, tarixi-mədəni proseslərin yeni sferada milli mənsubluğunu dominantlıq kontekstində bir prinsip olaraq müəyyənləşdirdi.

Şah Abbasın hakimiyyətə gəlişi və məmləkətdə farslaşdırmanın bir ideoloji prinsip olaraq əsas götürülməsi, paytaxtın İsfahana köçürülməsi, fars dilinin dövlət dili elanı, türk bəylərinin düşünülmüş və məqsədli şəkildə siyasi hakimiyyətdən uzaqlaşdırılması milli hərəkat dönəmi hadisələrə gəlişin tarixi axarındakı geneoloji qaynağını müəyyənləşdirir.

4. Siyasi müstəvidə hadisələrin mürəkkəbləşmə tendensiyası və Səfəvi Azərbaycan dövlətinin Səfəvi fars dövləti ilə əvəzlənməsi xalqın milli oyanış səviyyəsində hərəkətliliyi üçün əsas oldu. Cahanşümul dövlətçilik məfkurəsi ilə yaşayan Azərbaycan xalqı XVII əsrdə siyasi müstəvidə itirdiklərini möhtəşəm mədəniyyət abidələri ("Koroğlu", "Tahir və Zöhrə", "Qərib və Şahsənəm", "Abbas və Gülgəz", "Qurbani", "Şah İsmayıl" və s.) yaratmağa üstünlük verməklə doldurdu. Burada xalqın zəngin məişəti, etnoqrafik mədəniyyəti, mərasim folkloru,

inam və etiqadları, aşıq yaradıcılığı funksional rolu ilə etnik müəyyənliyin mədəniyyət səviyyəsində intibahını bir proses olaraq reallaşdırdı.

5. Cənubi Azərbaycan milli hərəkatının bədii ədəbiyyatda inikas mənzərəsi bütün bunlara ictimai-siyasi proseslər müstəvisində aydınlıq gətirməyi bir zərurət olaraq qarşıya qoyur və problemin təfərrüatlı mənzərəsi üçün onun geneoloji fakturasında olanları müəyyənləşdirməyi əsas edir.

6. Cənubda və Şimalda azərbaycançılıq, etnik bütövlük, tarixi mənsubluq bir məfkurə olaraq XIX əsr boyu yüksələn tendensiya ilə özünü tonallığını qorudu. Etiraz dalğaları, siyasi mühitin formalaşdırmağa çalışdığı ideoloji xalqın hüquqlarının, iqtisadi tənəzzülünün, mədəni sıxıntılarının məqsədyönlü bir proses olaraq reallaşması fonunda qarşıdurmaları qaçılmaz edirdi. Şimalda qaçaq hərəkatı timsalında boy göstərən proseslər Cənubda Təbriz, Xoy, Səlmas, Mərənd, Zəncan üsyanları formasında oyanışa, qarşıdurmaya, milli mücadiləyə əsas verdi. "Qaçaq Nəbi", "Qaçaq Kərəm", Qaçaq İsaxan", "Qandal Nağı", "Qara Tanrıverdi", "Molla Nur", "Səməd bəy", "Qaçaq Süleyman" və s. kimi mədəniyyət abidələrinin yaranması tarixi prosesin etnik bütövlük səviyyəsində mücadilə aparılması tendensiyasını proqnozlaşdırdı. Ədəbi-mədəni mühitdə bu proses A.Bakıxanov, M.Ş.Vazeh, H.Zərdabi, M.F.Axundov, M.Şahtaxtlı, M.A.Təbrizi və s. şəxsiyyətlərin yaradıcı təfəkküründə bir prinsip olaraq əsas götürülməklə problemlərin həllinin axtarışları timsalında konsepsiyalaşdı.

7. Siyasi proseslərin mücadilə konsepsiyası XX əsrə daha mürəkkəb tendensiyalarla, özünütəşkil və özünüdərk fonunda dövlətçilik məfkurəsinin işlənməsi ilə diqqət önünə gəlir. Səttərxan hərəkatı (1906-1911) bütünlükdə Cənub boyu ayaqlaşma qalaqlanmış problemlərin həlli həm də müstəqillik (muxtariyyət) məsələsini bir məqsəd olaraq

reallaşdırmağı məqsədə çevirdi. Prosesin uğursuz nəticəsi mücadiləni sonuclandırmadı və rejim səviyyəsində təqiblərə, təzyiqlərə, qırğınlara baxmayaraq bir neçə il sonra Şeyx Məhəmməd Xiyabani hərəkatı yeni mərhələ olaraq mücadilənin dönməzliyini və vətənqurma məramının mahiyyətini siyasi mühitə diktə etdi. Şimalda bu proses Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə reallaşdı. Şimalda və Cənubda gedən proseslər M.F.Axundovun, Ə.Hüseynzadənin, Ə.Ağayevin, Z.Göyalpın, Y.Akçuarın, M.Ə.Rəsulzadənin hazırlamağa çalışdığı milli dövlət konsepsiyasına bağlanırdı. Müsəlman Şərqinin tənəzzüldən xilas olması tinmsalında bu Şeyx Camal Əfqani timsalında işləndi.

8. Şimalda Azərbaycan Xalq Cümhuriyyətinin, Cənubda Milli hökumət dönəminin fəlaliyyət konsepsiyası (az ömürlü olmasına baxmayaraq) millətə azadlığın nə olduğunu bütün müstəvilərdə anlatdı. Ədəbi-mədəni mühitdə gedən proseslər, F.Köçərli, Ü.Hacıbəyov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli, M.A.Sabir, M.Hadi, A.Səhhət, Ə.Qəmküsar, M.Ə.Möcüz, M.Ə.Talıbov, Z.Marağayi və s. onlarla, yüzlərlə ziyalı qruplarının fəal mövqeyi bütün mahiyyəti ilə azərbaycançılıq, vətənqurma amalını baş mövzu olaraq ortaya qoydu. "Ziya", "Ziyayi-Qafqaziyyə", "Şərqi-Rus", "Həyat", "Füyuzat", "Molla Nəsrəddin", "İrşad", Tazə həyat", "Tərəqqi", "Dəbistan", "Məktəb", "Zənbur", "Rəhbər", "İqbal", "Açıq söz", "Kəlniyyət", "Hümmət", "Beyrəqi-ədalət", "Fəryad", "Təcəddüd" və s. mətbu orqanları bu prosesdə ideoloji ağırlığı öz üzərinə götürdü. Bütün fəaliyyət sistemini tarixi dövlət və etnik mənsubluq üzərində kökləməklə həm də mücadilənin ümumi nəzəri konseptini öz bətnində hazırlamaq funksiyasını yerinə yetirdi.

9. Sovetlər dönəminin ideoloji sistemi "xalqların qardaşlığı" məfkurəsini əsas götürməklə bolşevizm

formulasında yeni şəraitə uyğun səviyyədə fəaliyyət proqramı ilə daha kəskin və daha təhlükəli tendensiya ilə yetmiş ili yola verdi; son olaraq bu mürəkkəblikdə daxili aşınmalarla (içdən çürümələrlə) ömrünü başa vurdu. Azərbaycan Şimalda öz milli dövlət konsepsiyasını reallaşdırdı.

10. Cənubda bu proses Şeyx Məhəmməd Xiyabani hərəkatından sonra bütün sıxıntılara, təqiblərə baxmayaraq, özünü yenidən təşkil etmək funksiyasını proyeksiyalaşdırdı. Demək olar, publisistika, poeziya, nəsr bütün ağırlığı, milli mücadilənin nəzəri-elmi konsepsiyasını sonrakı onilliklər üçün işləmək yolunu tutdu. Azərbaycan xalqının etnik tarixindən üzü bu yana olanlar səviyyəsində Cənub mürəkkəb proseslərin axarında içdən özünü təşkil etmək məramı ilə hərəkətə keçdi. M.Səfvət, Ə.Dehxuda, Ə.Fitrət, İ.Zakir, C.Kaşif, F.Məhzun, M.M.Etimad, H.Sahir, Həddad, H.Nasiri, H.Səhhaf, M.Şəhriyar, M.M.Çavuşi, Coşğun, M.T.Milani, H.Cavan, M.Hiknam, H.Tərlan, B.Azəroğlu, Məftun, M.Dirəfşi, Y.Şeyda, Ə.Tudə, İ.Cəfərpur, S.C.Nikbin, H.Billuri, M.Gülgün, S.Tahir, Səhənd, Kəmali, Hüşyar və digər onlarla sənətkarın yaradıcılığında bu əsas xətt olaraq götürüldü.

11. Ədəbiyyatın şifahi və yazılı qolu məsələyə bazis səviyyəsində həssaslıq göstərməklə problemlərin qaynağı və mahiyyəti baxımından maarifləndirmə işinə qərar verdi. Cənubi Azərbaycanda milli hökumət dönəmi və ondan sonrakı (eləcə də ondan əvvəlki onillik) ədəbi prosesi siyasi mühitin qadağaları timsalında, məsələn, dil baxımından "türkün dili tək ehsaslı dil olmaz" mövqeyini sərgilədi. "Mən zaman şairiyəm, qələmim qan yazacaq" kimi düşüncələrlə prosesin dönməzliyinə kökləndi. "Təbriz", "Azərbaycan", "Vətən", "Araz", "Bakı" və s. adlarda simvollaşma müxtəlif mətn və müəllif paradiqmalarında mahiyyəti bütün parametrlərdə ortaya qoydu. "Heydərbabaya salam", "Səhəndə məktub", "İki qardaş

arasında", "Azadlıq quşu "Varlıq" (M.Şəhriyar), "Vətənim Azərbaycan", "Təbriz", (M.Məhzun), "Yurd mahnısı", "Şeirin dili" (H.Sahir), "Şəhidlərə", "Bülbülün arzusu", "Eldayağına salam" (A.Bariz), "Şah gedər oldu", "Azərbaycan əncüməninə", "Dədə Qorqud" (H.Tərlan), "Qan bayrağı", "Şəhidin qanı" (Y.Şeyda) və s. timslaında etnik ruhun, milli-mənəvi yaddaşın hərəkətliliyi timsalında mühiti ifadəni bir amal olaraq qarşısına qoydu.

12. Milli hərəkatın bədii ədəbiyyatda polifonik məzmununun bütün spektrləri ilə ifadəsi mətn fenomenliyi, janr məzmunu, nitq etiketlərinin aparıcılığı ilə fundamental təsəvvür formalaşdırdı. Nəsrin mühiti ifadə üsulları yaradıcı axtarışlarında tipikləşdirmə və ümumiləşdirmə fonunda etnik kutsallığı və onun qorunuşunu bir məram olaraq məqsədə çevirdi.

13. Cənubi Azərbaycan milli hərəkatının konseptual strategiyasının bazis prinsipləri publisistikada bütün parametrləri işlənməklə sosial sferaya çatdırıldı. Mətbuatın funksional rolu və proseslərin dinamik mənzərəsi publisistikanın aparıcı xəttə çıxmasını bir zərurət olaraq reallaşdırdı.

14. Dramaturgiya sahəsində özünü göstərən lənglik siyasi mühitin sərgilədiyi sərt mövqeylə əlaqələnir. XIX və XX əsr boyu yaranan nümunələr məzmun formulası ilə poeziya, nəsr, publisistikada olduğu kimi, milli-mənəvi dəyərlər konseptindən çıxış etməklə problemi ifadəyə köklənirdi. Lakin onun səhnə formulasının mümkünsüzlüyü bu sahənin geniş intişarına, yeni orijinal nümunələrlə zənginləşmələrə yol açmasına imkan verməmişdi. Milli hökumət dövründə bu sahədə verilən qərarlar hökumətin məğlubiyyətindən sonra baş verən oyanışa son qoymuşdu.

15. Cənubi Azərbaycan ədəbiyyatının milli hökumət dövrünü bədii sferada əks etdirməsi bir özgürlük hadisəsi kimi möhtəşəmlik qazanır və bütün parametrlərdə etnik kimliyin qorunuşuna bağlanır. Folklordan gələn ifadə

üsulları, leksik-semantik paralellərin xalq təhkiyəsinə hesablanması, mətn//mühit, mətn//subyekt, mətn//mətn səviyyəsində özünü göstərən paradiqmalar arxaik qatdan gələn modelləşməyə, normativlərin folklor prinsipinə hesablanmaqla tarixi-mədəni prosesin gedişi haqqında fundamental təsəvvür formalaşdırdı.

16. Bütünlükdə ədəbiyyatın mətn fenomenliyi, sözün məna yaddaşı, janr məzmunu milli ruha, etnoqrafik yaddaşa, folklor stixiyasına köklənməklə etnik mənsubluğun mövcudluq örnəyi olaraq formulasını hazırlayır. Fövqəlzamanlıq və fövqəlməkanlıq timsalında semantik işarələnmələrlə müəllif, janr və üslub paradiqmalarında mükəmməl bir bütövlüyü (Vətən bütövlüyünü) konsepsiya olaraq işləyir. Bütün bunlar Cənubi Azərbaycan milli hərəkatının bədii ədəbiyyat müstəvisində bir kimlik və mövcudluq hadisəsi olaraq möhtəşəmliyini, həm də gələcəyə daşınan dinamik axarını müəyyənləşdirir.

Dissertasiyanın əsas məzmunu və elmi müddəaları aşağıdakı **məqalə və kitablarda** öz əksini tapmışdır.

1. Cənubi Azərbaycan ədəbiyyatı Cəfər Xəndanın yaradıcılığında (Cənubi Azərbaycan ədəbiyyatının tədqiqi tarixi) // Klassik Azərbaycan filologiyası və müasir problemlər mövzusunda Cəfər Xəndanın 100 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransın materialları. Bakı, ADPU, 2010, - səh. 54-61

2. XX əsrin əvvəllərində Cənubi Azərbaycan tarixi və mədəniyyəti erməni terroru ilə üz-üzə. // ADPU-nun X elmi konfransının materialları, Bakı, ADPU, 2012 - səh. 242-247

3 Söz sərrafı Hacı Rza Sərrafın yaradıcılığı ədəbi tənqidin gözü ilə //“Şərqşünaslığın aktual problemləri” mövzusunda Respublika elmi konfransının materialları. Bakı, BDU, 2012, - səh. 292-299

4. XX əsr Azərbaycan-türk mətbuatı və mədəniyyət tariximiz. // Şərqşünaslıq İnstitutunun “Elmi araşdırmaları” (IX buraxılış), Bakı, 2012, - səh. 206-211

5. Zərrədən bütövə doğru. // "Yaşayan Yunis Əmrə" Beynəlxalq elmi konfransının materialları, Bakı, "Elm və təhsil", 2013, - səh. 156-163

6. Günahı yaralı Arazın boynuna, yaxud mənəvi səfalət və qan yaddaşı. // "Azərbaycan Şərqşünaslıq elminin inkişaf yolları" Beynəlxalq elmi konfransının materialları, Bakı, "Bakı Çap Evi", 2013, - səh. 400-402

7. Millilik, azadlıq və xəlqilik poeziyası. // Filologiya məsələləri, Bakı, "Elm və təhsil". 2013, № 2, - səh. 330-337

8. M.İbrahimovun "Cənub hekayələri"ndə Azadın arzuladığı gün uğrunda ədəbi bədii və ictimai-siyasi mübarizə.// Filologiya məsələləri, Bakı, "Elm və təhsil" 2013, № 3 -səh. 367-373

9. Xalq şairi Balaş Azəroğlu və "21 Azər" hərəkatı// Filologiya məsələləri, Bakı, "Elm və təhsil" 2013, № 5, - səh. 354-360

10. Demokrat şairə Hökumə Billurinin vətən həsrətli, kədər motivli mühacirət yaradıcılığı.// Filologiya məsələləri, Bakı, "Elm və təhsil" 2013, № 6, - səh. 292-299

11. Xalq şairi Hökumə Billurinin "Səriyyə" poeması fars şovinizminin törətdiyi dəhşətlərin bədii ifadəsi kimi// Filologiya məsələləri, Bakı, "Elm və təhsil" 2013, № 7, - səh. 301-307

12. Cənubi Azərbaycanda Sabirin davamçıları və ya inqilabi-demokratik hərəkata doğru.// Filologiya məsələləri, Bakı, "Elm və təhsil" 2013, № 8, səh. 395-406

13. 1941-1946-cı illərdə Cənubi Azərbaycanda sosial-iqtisadi və mədəni vəziyyət.// Dil və ədəbiyyat, Bakı, BDU, 2013, № 1 (85),- səh. 165-168

14. 1941-1946-cı illər Cənubi Azərbaycan milli-azadlıq hərəkatı əvvəlki azadlıq hərəkatının davamı kimi.// Dil və ədəbiyyat, Bakı, BDU, 2013, № 2 (86), - səh. 285-287

15. B.Azəroğlunun mühacirət dövrü yaradıcılığında milli hərəkatın təsviri və vətənpərvərlik mövzusu.// Dil və ədəbiyyat, Bakı, BDU, 2013, № 3 (87), səh. 152-156

16. Cənubi Azərbaycan ədəbiyyatının tədrisi// Azərbaycan dili və ədəbiyyat tədrisi, Bakı, 2013, № 01, - səh. 34-38

17. İnqilabi-hərəkat dövründə xalqımızın dili, tarixi və mənəviyyatı uğrunda mübarizə.// Pedaqoji Universitet xəbərləri, Bakı, 2013, № 1, - səh. 279-283

18. Təbriz qızının həyat və yaşam fəlsəfəsi (M.Gülgünün həyat və yaradıcılığı əsasında)// Pedaqoji Universitet xəbərləri, Bakı, 2013, № 2, - səh. 266-271

19. Ашуг Гусейн Джаван и революционно-демократическое движение// «Язык, культура, этикет в современном полиэтническом пространстве» mövzusunda keçirilən III Beynəlxalq elmi konfransın materialları, Nalçik, Poliqrafiçeskiy uçastok KBQU, 2013, - səh. 19-22

20. Mədinə Gülgün yaradıcılığında ana, vətən mövzusu və cənub həsrəti// Pedaqoji Universitet Xəbərləri. Bakı,2013, №3,-səh. 290-294

21. Проблема народа и верующего в народ героя в поеме "Саттар Хан"- Зохраба Тахира.// Вестник (серия филологическая).Алматы. Казахский национальный Университет имени АЛЬ-Фараби 2013, №5-6 (145-146), -ст. 119-125

22. Воспевание интернационализма и идеи свободы в творчестве Мадины Гюльгюн// Ученые записки (научный журнал). Симферополь, 2013, том 26 (65), Филология, ст.431-437

23. S.C.Pişəvərinin həyat və fəaliyyəti müasir ədəbiyyatşünaslığın nəzər nöqtəsində.//Az.dili və ədəbiyyatı tədrisi. Bakı, 2014, №1, - səh. 18-25

24. Söhrab Tahirin yaradıcılığında azadlıq mübarizəsi.// Azərbaycan dili və ədəbiyyatı tədrisi. Bakı, 2014, №2, - səh.6-11

25. Müasir Azərbaycan ədəbiyyatşünaslığı S.C.Pişəvəri haqqında (2-ci məqalə) // Humanitar Elmlərin öyrənilməsinin Aktual Problemləri. Bakı, 2014, №2, -səh. 170-175

26. Cənubi Azərbaycan Publisistikasında Cəfər Xəndan fenomeni// Gənc Tədqiqatçıların II Beynalxalq Elmi konfransı.18-19 aprel 2014-cü il. Bakı/Azərbaycan, -səh. 292

27. Cənubi Azərbaycan mətbuatında Azərbaycançılığın tərənnümü// (Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş V Beynəlxalq elmi konfransının materialları) 05-07 may 2014-cü il. Bakı, Azərbaycan, -səh. 193-196

28. İnqilabı Hərəkat dövründə publisistikada Ədəbiyyat məsələləri.// (İlyas Əfəndiyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş Respublika Elmi Konfransının materialları). Bakı, 2014, -səh. 335-343

29. Cənubi Azərbaycan dramaturgiyası və onun təkamül yolu// Sivilizasiya. Elmi- nəzəri jurnal. Bakı, 2014, №4, -səh. 68-73

30. Проза и поэзия Южного Азербайджана 1941-1946 годов на страницах печати. // XIV Международный научной конференции «Новые парадигмы и новые решения в когнитивной лингвистике». Бишкек 4- 5 июля, 2014 год.

31. Demokratik düşüncə və azadlıq idealı uğrunda mübarizədə Azərbaycan xalqının avanqard rolu.// Sivilizasiya, Bakı, 2014, №11, -səh. 227-232.

32. Torpaqla sənət arasında.// "Elmin müasir nailiyyətləri" mövzusunda VII Beynəlxalq elmi konfransının materialları. Bakı, 23-24 oktyabr, 2014, №9, -səh. 73-75.

33. Литература Южного Азербайджана и вопросы поэтического наследия.// (материалы I Международный научно- практической конференции). 24-25 октября, 2014 года, Пятигорск, -ст. 15-19

34. Mədinə Gülgün yaradıcılığında mərd və mübariz fədai obrazı. (Gənc tədqiqatçıların III Beynəlxalq elmi konfransının materialları. II kitab). 17-18 aprel, 2015-ci il, Bakı, Azərbaycan., - səh. 1020-1022.

35. Böyük Vətən müharibəsindən sonra ədəbiyyatşünaslıqda Cənubi Azərbaycan problemlərinin öyrənilməsi.// (Azərbaycanşünaslığın aktual problem- ləri. VI Beynəlxalq elmi konfransın materialları). 5-7 ma 2015-ci il, Bakı, Azərbaycan, - səh. 288-291.

36. Sürgün düşmüş bir mədəniyyətin oyaq vicdanı.// ("B. Vahabzadə və Azərbaycan filologiyasının aktual problemləri"). Beynəlxalq elmi konfransının materialları. 29 oktyabr 2015-ci il, Bakı, - səh.153-156.

37. Azadlıq və istiqlal şairləri: Bəxtiyar Vahabzadə və Sönməz I.// "Milli dəyərlər və istiqlal uğrunda mübarizələr" adlı Respublika elmi konfransının materialları Bakı, 4 iyun 2015, səh. - 53-57

38. Od tarixli vətənin od nəğməli övladı// B.Vahabzadənin 90 illik yubilliyinə həsr olunmuş "İnsan və zaman" adlı Respublika elmi konfransının materialları Bakı, 26-27 noyabr 2015, -səh. 195-205

39. Azadlıq və istiqlal şairləri: Bəxtiyar Vahabzadə və Sönməz (II məqalə).// Gənc Tədqiqatçıların IV Beynəlxalq Elmi konfransının materialları, Bakı, 29-30 aprel 2016, -səh. 1057-1058

40. Demokrat şair S.Behrəngi Azərbaycan folkloru, uşaq ədəbiyyatı və Səhəndin "Sazımın sözü" kitabı haqqında,// Beynəlxalq Elmi konfransın materialları Bakı, 3-5 may 2016-cı il I hissə, -səh. 231-233

41. Yəhya Şeyda// Azərbaycan jurnalı. 2016 №6, səh. 184-189

42. Məhəmmədhüseyn Şəhriyar xəlqi şairdir.// Filologiya məsələlər. Bakı, 2017 №6, -səh. 310-316

43 “Gələcək gün” M.İbrahimov qələminin təntənəsidir// “Təfəkkür” elmi xəbərlər jurnalı, Bakı, 2017 №2,- səh. 33-39

44. Vətən, zəfər nəğməkarı S. Rüstəm publisitikasında// “Axtarışlar” jurnalı, Bakı 2017, №3, - səh. 71-78

45. M.Şəhriyarın “Heydərbabaya salam” poeması və milli-demokratik hərəkatın canlanması.// Azərbaycanşünaslığın aktual problemləri. IX Beynəlxalq elmi konfransın materialları. Bakı, 3-4 may, 2018,- səh. 145-148

46. Milli hökumət dövrü mətbuatının tarixi əhəmiyyəti (dekabr 1945-dekbr 1946 Cənubi Azərbaycan)// Filologiya məsələləri jurnalı. Bakı, 2018, №10,- səh. 232-237

47. A.Makulu (Pənahi) yaradıcılığında milli-azadlıq hərəkatının təsviri// Xudafərin jurnalı. Tehran, 2018, - səh. 42-47

48. Cənubi Azərbaycan Poeziyası publisistikada// Avrasiya zirvəsi 6-cı Beynəlxalq elmi araşdırmalar və aktual problemlər konfransı. Bakı, 18-20 may, 2020, - səh. 662-666

49. Böyük Vətən müharibəsinin son illərində Cənubi Azərbaycan və Sovet Azərbaycanı ədəbi əlaqələri// Filologiya məsələləri. Bakı, 2020, №5, - səh. 188-194

50. Güney Azərbaycan poeziyasının intibah dövrü// “Xudafərin” jurnalı. Tehran, 2020, say 6, iyul, -səh. 26-34

51. Nizami Xudiyev Fenomeni və Güney Azərbaycan ədəbi dili// “Xudafərin” jurnalı. Tehran, 2020, say 187, sentyabr, -səh.18-24

52. “Cənubi Azərbaycan satira tarixi” (İran nəşri), 2020, 200 səh.

53. “Cənubi Azərbaycan milli hərəkatı və ədəbi-mədəni mühit” . Bakı, 2022, 426 səh.
54. “M.Ə. Möcüz Şəbüstəri”. Bakı, 2002, 190 səh.
55. The period of the national movement in South Azerbaijan (1941– 1946). SHS WEB of Conferences Volume164 (2023) 11th International Scientific and Practical Conference “Current issues of Linguistics and Didactics: The Interdisciplinary Approach in Humanitarians and Social Sciences”.- p.1-3
56. Güney Azərbaycan milli hərəkatı və ədəbi mədəni mühit. Tehran, 2023, səh 35-38
57. Od tarixli vətənin od nəğməli övladı Tehran 22 mart, 2023, -səh. 22-24
58. Cənubi Azərbaycan Milli Azadlıq Hərəkatının tərənnümündə Söhrab Tahirin rolu. Kredo qəzeti. 28 mart 2024, s.4-5
59. 1944-1945-ci illər Cənubi Azərbaycan poeziyası. IV Uluslararası Kayseri Bilimsel Çalışmalar Konqresi. Turkiye, 20-22 dekabr 2024, -səh. 39-40



Dissertasiyanın müdafiəsi 13 may 2025-ci il tarixində saat 12⁰⁰ Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1001, Bakı şəhəri 8-ci Kiçik Qala döngəsi, 31

Dissertasiya ilə AMEA Folklor İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Ali Attestasiya Komissiyasının (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 05 Aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 07.04.2025
Kağız formatı: 60x84 16\[1]
Həcm: 91230 işarə
Tiraj: 100